**XALİD MAHMUD**

# ƏBƏDİYYƏT YOLÇULARI

*(qısa ensiklopedik toplu)*

**Bakı - 2016**

**MƏSLƏHƏTÇİ:** **Eldar İSKƏNDƏRZADƏ**
*Şair, AYB-nin, AJB-nin və Azərbaycan Kinematoqrafçılar İttifaqının üzvü.*

**Xalid MAHMUD.***«Əbədiyyət yolçuları »*
Bakı, ***"Nəşriyyat",*** 2016, 160səh.

Bu kitabda dövlətimizin ərazi bütövlüyü uğrunda döyüşərək qəhrəmanlıqlar göstərən və bu yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalan Lerik rayonunun mübariz övladlarının qısa həyat yolu əks olunub. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

**____________ гриф.**

**© Nəşriyyat, 2016**
**© X. Mahmud, 2016**

# ÖLÜM SEVİNMƏSİN...



***«Mən ölümü xoşbəxtlik, zalımlara tabe halda yaşamağı isə zillət sayıram».***

***Hz. İmam Hüseyn (ə)***



**FƏXRƏDDİN ŞAHBAZOV**
**(1950-1991)**

***Şahbazov Fəxrəddin İbrahim oğlu-*** 22 yanvar 1950-ci ildə Bakı şəhərində anadan olub. Əslən Lerik rayonunun Göydərə kəndindən olan Fəxrəddin 1957-1967-ci illərdə Bakı şəhərindəki 20 saylı orta məktəbdə təhsil alıb. 1969-1971-ci illərdə sovet ordu sıralarında xidmət edib. 1972-ci ildən Azərbaycan Teleradio Şirkətində işə başlayıb və 20 il burada fasiləsiz olaraq operator peşəsində çalışıb.

1988-ci ildən başlayaraq ermənilərin azərbaycanlıları Dağlıq Qarabağ və eləcə də, Qərbi Azərbaycan torpqlarından zorla çıxarması Fəxrəddini də narahat edirdi. Fəxrəddin könüllü olaraq cəbhəyə gedib qaynar döyüş meydanlarından reportajlar hazırlayar və xalqa, eləcə də xarici ölkələrə çatdırardı. 1991-ci ildə ermənilər Xocavənd rayonunda ağılasığmaz vəhşiliklər törədərək dinc sakinləri qətlə yetirib, kəndlər yandırmışdılar. 20 noyabr 1991-ci ildə dövlət nümayəndələri hadisəni araşdırmaq üçün Mİ-8vertolyotu ilə Xocavənd rayonuna yola düşürlər.

Xocavəndin Qarakənd kəndi yaxınlığında erməni terroru nəticəsində vertolyot vurularaq yerə salınır. Vertoliyotun bütün heyyəti ilə bərabər Şahbazov Fəxrəddin də şəhid olur. Azərbaycan Respublikası prezidentinin 4 dekabr 1992-ci il tarixli 344 saylı fərmanı ilə Şahbazov Fəxrəddin İbrahim oğluna ölümündən sonra ***"Azərbaycanın Milli Qəhrəmanı"*** adı verilir.



**VALEH MÜSLÜMOV**
**(1968-1992)**

***Müslümov Valeh Əlizaid oğlu-*** 2 sentyabr 1968-ci ildə Lerik rayonunda doğulub. 1983-ci ildə 2 saylı Lerik rayon orta məktəbinin səkkizinci sinfini bitirib və Sumqayıt şəhər 17 saylı peşə məktəbində dülgər ixtisasına yiyələnib. Bir müddət Tikinti Trestinin Səyyar Mexanikləşdirilmiş dəstəsində çalışıb. 1986-1988-ci illərdə hərbi xidmətdə olduqdan sonra Sumqayıta qayıdıb. 1991-ci ilin avqustunda DİN-nin Xüsusi Təyinatlı Milis Dəstə-sində xidmətə başlayıb. Şuşa, Tovuz və Qubadlıda keçirilən döyüş əməliyyatlarında iştirak edib.

14 aprel 1992-ci ildə Marquşevan kəndi yaxınlığında erməni silahlıları çoxlu sayda texnika və canlı qüvvə ilə kəndə hücuma keçirlər. Valeh öz dəstəsilə ilk olaraq döyüşə atılır. O, Həm vuruşur, həm də yaralı əsgərləri döyüş meydanından çıxarır. Qeyri-bərabər döyüşdə Valeh yaralanır, buna baxmayaraq on bir nəfər yaralı əsgəri də döyüş meydanından xilas edə bilir. Əfsus ki, çoxlu qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmur.

AzərbaycanRespublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə Müslümov Valeh Əlizaid oğluna ölümündən sonra ***"Azərbaycanın Milli Qəhrəmanı"*** adı verilir. Lerik şəhər iki saylı orta məktəbi Müslümov Valeh Əlizaid oğlunun adını daşıyr.



**RÖVŞƏN ABDULLAYEV**
**(1969-1993)**

***Abdulayev Rövşən Əbdülhüseyn oğlu***-16 yanvar 1969-cu ildə Lerik rayonunda doğulub. Orta məktəbi burada bitirdikdən sonra ailəsi ilə birlidə Lənkəran şəhərinə köçür. Rövşən 1987-ci ildə Sankt-Peterburq Ali Hərbi-Siyasi məktəbinə daxil olur. 1991-ci ildə ali məktəbi əla qiymətlərlə bitirərək leytenant rütbəsi alır və təyinatla Rostov şəhər DİŞ-nə göndərilir. Lakin o, təkidlə təyinatını Azərbaycana dəyişdirir. Rövşən Abdullayev Azərbaycana qayıdan kimi DİN-in əməkdaşı olaraq daxili qoşunların tərkibinə qatılır. Gənc zabit bir müddət sonra Zəngilana göndərilir. Rövşən 70 nəfərdən ibarət heyyətin tağım komandiri təyin edilir. Zəngilan rayonunun kəndlərini düşməndən qoruyan Rövşənin başçılıq etdiyi dəstə öz qəhrəmanlığı ilə ad çıxarır.

13 setyabr 1993-cü il Zəngilan rayonunun Qazançı kəndi uğrunda gedən döyüşdə Rövşən Abdullayev igidlik göstərərək qəhrəmancasına şəhid olur.

Azərbaycan Respublikasının Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə leytenant Abdullayev Rövşən Əbdülhüseyn oğlu ölümündən sonra ***"Azərbaycanın Milli Qəhrəmanı"*** adına layiq görülür.

Lənkəran şəhərində, eləcə də Lerik rayonunda şəhidin abidəsi ucaldılıb. Lerik rayonunda Abdullayev Rövşən Əbdülhüseyn oğlunun adına mədəniyyət evi və küçə mövcuddur.



**FƏRHAD AĞAYEV**
**(1975-1995)**

***Ağayev Fərhad İslam oğlu*** – 4 avqust 1975-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. Sonradan ailəsi ilə birlikdə Sabirabad rayonunun Əlilənbəyli kəndinə köçərək burada yaşamağa başlayırlar. O, 1992-ci ildə Əlilənbəyli kənd məktəbini bitirdikdən sonra, 1993-cü ildə Sabirabad rayon Hərbi Komissarlığı tərəfindən milli ordu sıralarına çağırılır.

Fərhad Ağayev 24 yanvar 1994-cü ildə cəbhəyə yola düşür. İlk döyüşlərini Fizuli rayonunun Seyidəhmədli kəndində keçirir. Fərhad Ağayev Murovdağ, Güzgü, Ömərdağ kimi əhəmiyyətli ərazilərin müdafiəsində yaxından iştirak edərək igidliklər göstərir. Fərhad həm də Prezident Qvardiyasında xidmət edirdi.

Fərhad Ağayev 1995-ci ilin mart ayında qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək Sabirabad rayonundakı şəhidlər xiyabanında dəfn olunur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Ağayev Fərhad İslam oğlu ölümündən sonra ***“Azərbaycanın Milli Qəhrəmanı”*** adına layiq görülür.

Bitirdiyi orta məktəb onun adını daşıyır. Sabirabad və Lerik rayonlarında, eləcə də Əlilənbəyli kənd orta məktəbinin həyətində Fərhad Ağayevin büstü qoyulub.



**ƏSGƏR ƏLİYEV**
**(1974-1995)**

***Əliyev Əsgər Ələkbər oğlu*** - 1974-cü il noyabrın 8-də Lənkəran rayonunun Ləj kəndində anadan olub. Əslən Lerik rayonunun Mondigah kəndindən olan Əsgər Əliyev 1981-ci ildə Ləj kənd orta məktəbinin birinci sinfinə qəbul olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

O, orta təhsilini başa vurduqdan sonra Bakı Ali Ümumqoşun Komandirlər Məktəbinin tank-artilleriya fakültəsinin tələbəsi olub.

1995-ci il martın 17-də Bakıda hakimiyyəti zorla devirmək cəhdi zamanı Əsgər Əliyev 4 yaralını xilas edərkən aldığı güllə yarasından həlak olub.

Əsgər Əliyevin cənazəsi Lənkərana gətirilərək Ləj kənd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 1995-ci il 4 aprel tarixli 307 saylı fərmanı ilə Əsgər Ələkbər oğlu Əliyev ölümündən sonra "***Azərbaycanın Milli Qəhrəmanı***" adına layiq görülüb.

Lənkaran şəhərində şəhidin adına park var. Eyni zamanda, şəhərdə büstü ucaldılaraq xatirə lövhəsi vurulub.

Haftoni qəsəbə orta məktəbində şəhidin ***"Xatirə guşəsi"*** yaradılıb.



**BÜNYADƏLİ PƏLƏNGOV**
**(1957-1992)**

***Pələngov Bünyadəli Qulam oğlu-*** 1957-ci ildə Lerik rayonunun Züvüc kəndində anadan olub. 1964-74-cü illərdə orta məktəbdə təhsil alıb, orta məktəbi bitirdikdən sonra sovet ordu sıralarında xidmət edib. 1983-cü ildə sovet ordusunda gizir rütbəsində xidmət edib. 1984-cü ildə Tbilisi Ali Hərbi məktəbini, 1986-cı ildə M. F. Axundov adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirib.

1991-ci ildə Naxçıvan Muxtar Respublikasında hərbi xidmətdə olub, Sədərək döyüşlərində iştirak edərək şücaətlər göstərib.

Qarabağ uğrunda döyüş yolu isə 1992-ci ildə başlayıb. Qarabağın Naxçıvanik kəndi uğrunda gedən qanlı döyüşlərdə komandir kimi döyüşçülərə nümunə olaraq dəfələrlə yoldaşlarını mühasirədən qurtarıb.

1992-ci il iyunun 26-da Aranzəmin yüksəkliklərində gedən qanlı döyüşlərdə qəhrəmancasına şəhid olub.

Şəhidin cənazəsi Şəhidlər Xiyabanında torpağa tapışrılıb. Ölümündən sonra ***"İgidliyə görə qızıl medal"***la təltif olunub.

Lerik rayon Züvüc kənd orta məktəbi və Suraxanı rayon 285 saylı tam orta məktəb Pələngov Bünyadəli Qulam oğlunun adını daşıyır.



**SƏXAVƏT HACIYEV**
**(1966-1993)**

***Hacıyev Səxavət Əbi oğlu–*** 1 dekabr 1966-cı ildə Lerik rayonunun Rvarud kəndində anadan ol-ub. 1974-1984-ci illərdə Rvarud kənd orta məktəbində oxuyub. 1984-ci ildə Bakı Politexnik Texnukumuna daxil olub. 1984-ci ilin noyabrından 1986-ci ilin noyabrına qədər həqiqi hərbi xidmətdə olub.

Səxavət Hacıyev 1992-ci ilin fevral ayında Bakıdakı Hərbi Qərargaha gedərək könüllü Qarabağcəbhəsinə yola düşür. Səxavətin ilk döyüş yeri qədim və əzəmətli Şuşa şəhəri olur. Sonralar Naxçıvanada Sədərək uğrunda döyüşlərdə böyük igidliklər göstərir, daha da mətinləşir.

1992-ci ilin dekabr ayında Səxavət yenidən Milli Qurtuluş taqımının tərkibində Qarabağda ağır və qanlı döyüşlərin iştirakçısı olur. 17 yanvar 1993-ci il tarixində Səxavətin sonunucu qəhrəmanlıq döyüşu olur. Ağdərə uğrunda gedən döyüşlərdə ağır yaralanır. Bakıya aparılaraq M.Nağıyev adına xəstəxansına yerləşdirilir. Həkimlərin 8 günlük səyi və ağır cərrahiyyə əməliyyatları nəticəsiz qalır.

25 yanvar 1993-ci il tarixində cəsur döyüşçü əbədi ölməzliyə qovuşur. Vətən uğrundakı vətən borcunu şərəflə yerinə yetirir və müqəddəs şəhidlik zirvəsinə ucalır.



## CƏBRAYIL AĞAYEV
## (1964-1993)

***Ağayev Cəbrayıl Atamalı oğlu*** - 1964-cü il iyunun 20-də Lerik rayonunun Şivlə kəndində anadan olub. 1981-ci ildə Biləvər kənd orta məktəbin 10-cu sinfini bitirdikdən sonra hərbi xidmətə gedib və keçmiş Sovetlər Birliyinin Əfqanıstandakı məhdud qoşun kontingentinin tərkibində dörd il xidmət edib.Onun xidməti qiymətləndirilib, mükafatlara, medallara layiq görülüb.

Əfqanıstanda olduğu illər ərzində bərkə-boşa düşərək əsl hərbiçi kimi formalaşıb.

Qarabağ savaşı başlananda Milli ordu quruculuğunda fəal iştirak edib. Tağım komandiri kimi Cəbrayılın döyüş yolu Şuşa-Laçın, Kəlbəcər, Fizuli bölgələrindən keçib. Döyüş bacarığı və igidliyi ilə seçilən Cəbrayıl Ağayev döyüşlərin birində Fizuli tank batalyonun komandiri, yaralanmış Səyavuşu xilas etdikdən sonra döyüşçülər arasında şaşqınlıq düşməsinə yol verməyib, döyüşə özü rəhbərlik edir. Şuşa-Laçın dəhlizinə bir müddət Cəbrayılgilin dəstəsi nəzarət edir. Cəbrayıl 33 kəndin geriyə qayıtmasında böyük hünər göstərir, xidmətləri ***"Azərbaycan Bayrağı Ordeni"***nə layiq görülüb.

Cəbrayıl Ağayev 1993-cü ilin yanvar ayının 1-də Kəlbəcər uğrunda gedən qanlı döyüşlərdə qəhrəmancasınaşəhid olur. Təhsil aldığı Biləvər kənd orta məktəbi onun adını daşıyır.



**XAQANİ SALAYEV**
**1971-1992)**

***Salayev Xaqani Şəfəqqət oğlu*** **-** 1971-ci ildə Lerik rayonunun Razgöv kəndində anadan olub. 1978-ci ildə Rəzgöv kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbin onuncu sinfini bitirib. Orta məktəbini bitirdikdən sonra sovet ordu sıralarına çağırılan Xaqani bir ildən sonra Çelyabinsk Ali Tank məktəbinə daxil olur. Qarabağ müharibəsinin ən ağır dövründə kursantı olduğu Çelyabinsk Ali Tank Məktəbində təhsilini yarımçıq qoyaraq Vətənə qayıdır, 1992-ci il aprel ayının 14-də könüllü olaraq Qarabağ cəbhəsinə yola düşür.

Qarabağda elə ilk döyüşlərdə hərb taktikasını əla mənimsədiyi nəzərə alınaraq Qarabağ Könüllülər Batalyonunun qərargah rəisi vəzifəsinə təyin ediir, bu mühüm postda yüksək komandirlik və insani keyfiyyətləri ilə hamının dərin rəğbətini qazanır.

Xaqani Salayev Drambon, Qarakənd, Sərsəng su anbarı, Ağdərə, Sırxavənd uğrunda gedən döyüşlərdə böyük şücaət göstərir, adı dillər əzbərinə çevrilir.

1992-ci ilsentyabr ayının 3-də Xaqani Salayevin rəhbərlik etdiyi batalyon Sırxavənd istiqamətində hücuma keçir. Həmin döyüşdə düşmənin çoxlu canlı qüvvəsi və döyüş texnikası məhv edilir. Bu ağır döyüşdə Xaqani Salayev ağır yaralanaraq qəhrəmancasına şəhid olur.



## MEHMAN QAFAROV
## (1970-1993)

***Qafarov Mehman Yəhya oğlu*** – 02 yanvar 1970-cı ildə Lerik rayonunun Siyov kəndində anadan olub.1977-ci ildə Siyov kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1984-cü ildə həmin məktəbin yeddinci sinfini bitirib, elə həmin ildə də C. Naxçıvanski adına Ali Hərbi Litseyə daxil olub.1987-ci ildə oranı bitirib, 1988-ci ildə Kazan Ali Tank Qoşunları Komandirləri Məktəbinə daxil olub, 1991-ci ildə bu məktəbi əla qiymətlərlə bitirib.

1991-ci ilin avqust ayından 1992-ci ilin oktyabr ayına qədər Minsk hərbi dairəsində xidmət edib.

Mehman Qafarov Qarabağda ermənilərin törətdiyi vəhşiliklərə dözə bilməyib xidmətinə xitam verərək vətənə qayıdır, 704 saylı hərbi hissənin tərkibində 743 saylı tank alayında düşmənə qarşı mübarizəyə başlayır.

Mehmanın döyüş yolu Fizuli, Beyləqan və Ağcəbədi cəbhələrindən keçir. O, təcrübəli zabit kimi rəhbərlik etdiyi alayla dəfələrlə düşmənə sarsıdıcı zərbələr endirərək xeyli canlı qüvvəsini və hərbi texnikasını sıradan cıxarır.

Mehman Qafarov 1993-cü il aprelin 4-də qərərgah rəisi, həmin il iyunun 22-də alay komandiri təyin edilir.

Qorxmazlığı və döyüş bacarığı ilə ad çıxarmış Mehman 20 avqust 1993-cü ildə Ağcəbədi rayonunun Avşar kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Hal-hazırda oğlu onun yolunu davam etdirir.



## ANAR KƏRİMOV
## (1987 - 2015)

***Kərimov Anar İntiqam oğlu*** – 1987-ci ildə Lerik rayonunun Kirəvud kəndində anadan olub. 1994-cü ildə Səlim Cabbarov adına Kirəvud kənd əsas məktəbinin birinci sinfinə qəbul olunub. Anar Kərimov Kirəvud kənd əsas məktəbinin səkkizinci sinfini bitirdikdən sonra 2002-ci ildə Cəmşid Naxçıvanski adına hərbi litseyə qəbul olunur. Litseyi bitirdikdən sonra 2005-ci ildə Heydər Əliyev adına Ali Hərbi məktəbinə daxil olur. Heydər Əliyev adına Ali Hərbi məktəbi bitirdikdən sonra leytenant rütbəsində Milli ordu sıralarında xidmətə başlyır.

2010-cu ildən Naxçıvan MR-da xidmətə başlayır, bölük komandiri vəzifəsinədək yüksəlir.

Baş leytenant Kərimov Anar İntiqam oğlu 05 aprel 2015-ci ildə Culfa rayonunun "Ləkətdağ" istiqamətində düşmənlə həmsərhəd olan yüksəkliklərdə döyüş tapşırığını yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**ETİQAD HACIYEV**
**(1974-1993)**

***Hacıyev Etiqat Balaxan oğlu*** – 25 fevral 1974-cü ildə Lerik rayonununRvarud kəndində anadan olub.1981-ci ildəRvarud kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Səxavət orta məktəbi bitirdikdən sonraLənkəran şəhərində sürücülük üzrə təlim alır.

1992-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Etiqad Hacıyev cəbhə bölgəsinə yola salınır.

Etiqadın döyüş yolu Ağdam şəhərində yerləşən artileriya batalyonundan başlayır. Tankçı kimi xidmətə başlayan vətənin bu igid oğlu AğdamınQuzanlı,Mərizli və digər kəndlərin müdafiəsində igidliklər göstərərək düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir.

Ağdamda gedən qızğın döyuşlərin birində tank əleyhinə minaya düşərək ağır yaralanır. Bakı şəhərinə gətirilərək Hərbi Hospitalda yerləşdirilir. Həkimlərin ciddi səyinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmur.

Etiqad Hacıyev 5 iyul 1993-cü ildə Hərbi Hospitalda olduğu zaman gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır



**FUAD QAFAROV**
**(1975-1993)**

***Qafarov Fuad Xansuvar oğlu*-** 12 aprel 1975-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində anadan olub. Cəngəmiran kənd orta məktəbini bitirdikdən sonra Lerik rayonundakı 63 nömrəli texniki-peşə məktəbində oxuyub.

1993-cü ildə Azərbaycan Milli ordu sıralarına həqiqi hərbi xidmətə çağrılır. Qısa təlim məşqləri keçəndən sonra Göytəpə batalyonunun tərkibində ermənilərə qarşı döyüşlərdə iştirak edir.

Komandirlərinin verdiyi əmrləri can-başla yerinə yetirən Fuad çox keçmədən manqa komandiri vəzifəsinə təyin edilir.

1993-cü il dekabrın 30-da Fuadgilin taboru “N” təpəsinin yaxınlığındakı Fermanı erməni quldurlarından təmizləmək üçün hücuma keçir,düşmənin çoxlu zirehli texnikası və canlı qüvvəsini məhv edilir.

Beyləqan istiqamətində gedən döyüşlərdə düşmənin iki tankını sıradan çıxarmış, Qaraqumtəpənin azad edilməsində şücaət göstərir.

Fuad Qafarov 1993-cü il dekabrın 30-da qəhrəmancasına şəhid olmuşdur. Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək Xəlifə Zəkəriyyə qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilir.



## İSFƏNDİYAR MƏDƏTOV
## (1973-1994)

***Mədətov İsfəndiyar Mühacir oğlu-*** 1973-cü il iyun ayının 10-da Lerik rayonun Cəngəmiran kəndində anadan olub. 1990-cı ildə Cəngəmiran kənd orta məktəbini bitirib. 1992-ci ilin 13 may tarixində Azərbaycan Milli ordu sıralarına çağrılır. Ağdərə, Ağdam, Fizuli uğrunda gedən qanlı döyüşlərin iştirakçısı olur.

Ağdərə rayonunun Vaqauz kəndi uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümünəsi göstərir. 12 sentyabr 1992-ci ildə həmən döyüşdə 6 nəfər yoldaşı ilə birlikdə düşmən mühasirəsinə düşür, qeyri-bərabər döyüşdə döyüş yoldaşlarının hamısını itirsə də, son gülləsinə qədər silahı yerə qoymur. Şəhid olmuş yoldaşlarının meyidlərini götürmək məqsədi ilə həmən yerə gələn əsgərlərimiz orada 32 nəfər erməni cəsədini də aşkar edirlər. Bu döyüşlə bağlı “SƏS” qəzetinin 8 sentyabr 1993-ci il tarixli sayında məqalə dərc olunur.

İsfəndiyarın son döyüş yeri Ağdərə rayonunun Talış kəndi olur. 11 aprel 1994-cü ildə döyüşdə ağır yaralanan İsfəndiyarın həyatını xilas etmək mümkün olmur. O gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalır.

13 aprel 1994-cü ildə cənazəsi Cəngəmiran kəndinə gətirilərək Xəlifə Zəkəriyyə qəbiristanlığının Şəhidlər kompleksində torpağa tapşırılır.



## MİKAİL İBADOV
## (1963 - 1992)

***İbadov Mikail Qubad oğlu*** – 1963-cü il avqust ayının 16-da Lerik rayonun Cəngəmiran kəndində anadan olub. 1970-ci ildə Cəngəmiran kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1980-ci ildə həmin məktəbi bitirib.

1981-ci ildə Sovet ordusu sıralarına hərbi xidmətə çağırılıb, 1983-cü ildə ordudan tərxis olunub. Hərbi xidmətini Rusiyanın Xarkov şəhərində daxili qoşunlarda (VV) kəskin nişançı (snayper) kimi keçib.

Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır. Sonra işləmək üçün Bakı şəhərinə gedərək 3 nömrəli evtikmə kombinatında işə düzəlir və burada işləyir.

1992-ci ilin iyul ayında Suraxanı rayon Hərbi Komissarlığına könüllü olaraq müraciət edir və 27 iyul 1992-ci il tarixində Qarabağ cəbhəsinə göndərilir. Qarabağın bir çox bölgələrində döyüşlərdə kəskin nişançı kimi döyüşür və şücaətlər göstərir.

1992-ci il oktyabrın 2-də Martuni (indiki Xocavənd) rayonunun Muğanlı, Əmralılar və Kurapatkino kəndləri uğrunda gedən döyüşlərdə mühasirəyə düşür lakin təslim olmayaraq döyüş sürsatı bitənədək döyüşür və sonda qəhrəmancasına şəhid olur. Ərazi mühasirədə olduğundan digər döyüşçü yoldaşları kimi İbadov Mikail Qubad oğlunun da cəsədini götürmək mümkün olmur.



**ARZUMAN ƏSƏDULLAYEV**
**(1970-1992)**

***Əsədullayev Arzuman Azad oğlu*** - 1970-ci ildə Lerik qəsəbəsində dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra texniki-peşə məktəbində oxuyub və maşinist peşəsinə yiyələnib.

1987-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Arzuman keçmiş Sovet ordu sıralarına yola salınır. 1989-cu ildə hərbi xidmətini başa vuraraq vətənə qayıdır.

Ordudan tərxis olunduqdan sonra Bakı şəhərinin Xətai və Nizami rayon Daxili İşlər Şöbəsində polis olaraq xidmət edir. Qarabağ savaşı zamanı könüllü olaraq milli ordu sıralarına qoşulur.

Arzuman peşəkar hərbçi kimi bir çox döyüş əməliyyatlarının iştirakçısı olub, torpaqlarımızın müdafiəsində şəxsi igidliklər göstərib.

Vətənin qəhrəman oğlu 3 mart 1992-ci ildə döyüşlərin birində düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.

Ölümündən sonra Lerik rayonunun mərkəzi küçələrindən birinə Əsədullayev Arzuman Azadxan oğlunun adı verilir.



**NAZİM AĞAYEV**
**(1969-1992)**

***Ağayev Nazim Ziyad oğlu*** – 1969-cu ildə Lerik rayonunun Bülüdül kəndində anadan olub. 1976-cı ildə Bülüdül kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1986-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır.

Hərbi xidmətdən qayıtdıqdan sonra 1990-cı ildə Bakı Tibb Texnikumuna daxil olur.

Qarabağ savaşı başlandığından təhsilini yarımçıq qoyan Nazim digər qeyrətli vətən oğulları kimi könüllü olaraq həm bir həkim, həm də bir əsgər kimi döyüşə yollanır.

Nazim Ağayev Qarabağ cəbhəsində bir sıra uğurlu əməliyyatlarda iştirak edərək igidliklər göstərir, eyni zamanda bir həkim kimi neçə-neçə yaralını ölümün pəncəsindən xilas edərək onları həyata qaytarır.

Nazim Ağayev 1992-ci il mart ayının 27-də Daşaltı əməliyyatında şəhid olaraq əbədiyyətə qovuşur.

Hal-hazırda Bülüdül kənd orta məktəbi Nazim Ağayevin adını daşıyır.



## RZA RÜSTƏMOV
## (1963-1993)

***Rüstəmov Rza Sulduz oğlu***- 1963-cü ildə Lerik rayonunun Bülüdül kəndində anadan olub. 1970-ci ildə Bülüdül kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1980-cı ildə həmin məktəbini onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır.

Hərbi xidmətdən qayıtdıqdan sonra Qaradağ rayonunun Qızıldaş qəsəbəsinə köçərək burada məskunlaşır.

1992-ci il dekabırın 24-də bir qrup könüllülərlə birlikdə Şəhidlər Xiyabanını ziyarət etdikdən sonra özü də könüllü olaraq milli ordu sıralarına qoşulur.

Rzanın döyüş yolu Tərtər rayonundan başlayır, Tərtərin müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edərək şücaətlər göstərir. Sonra Ağdərə rayonuna gələrək burdakı əməliyyatlarda iştirak edir, döyüşlərdə xüsusi fəallığı ilə seçilir.

Rüstəmov Rza 18 yanvar 1993-cü ildə Sırxavənd uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**FƏZAİL AĞAYEV**
**(1961-1994)**

***Ağayev Fəzail Əmir oğlu*** – 1961-ci ildə Lerik rayonunun Musavar kəndində anadan olub. 1968-ci ildə Aran kənd dördillik məktəbinin birinci sinfinə qəbul olunub, 1978-ci ildə Boykəndil kənd orta məktəbinin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini Ukrayna Respublikasının Perm şəhərində başa vurur.

Hərbi xitmətdən qayıtdıqdan sonra Bakı Energetika Texnikumunda təhsil alır. Texnikumu bitirdikdən sonra bir müddət Lerik elektrik şəbəkəsində işləyir.

Qarabağ savaşı başlananda könüllü Milli ordu sıralarına yazılaraq döyüşə yollanır. Döyüş yolu Geranboy rayonundan başlayır. Daha sonra Fizuli rayonuna göndərilərək burdakı batalyonun tərkibində döyüşür.

Fəzail Fizuli rayonundakı strateji yüksəklikləri ələ keçirmək uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək igidliklər göstərir, döyüş yoldaşları ilə bərabər son mərmisinə qədər döyüşür.

Vətəni anası kimi sevən Fəzail Ağayev 14 aprel 1994-cü ildə Fizuli rayonu uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.



**LƏTİF AĞAYEV**
**(1970-1993)**

***Ağayev Lətif Xeyrulla oğlu*** – 1974 cü il may ayının 2-də Lerik rayonunun Züvüç kəndində anadan olub. 1981-ci ildə Lerik rayon Züvüç kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə adıçəkilən orta məktəbin onuncu sinfini bitirib.

1992-ci ilin aprel ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır. Xidmət dövrünün ilk üç ayını Daxili qoşunların Hacıqabul rayonunda yerləşən hissəsində çəkir, sonra isə Qarabağ cəbhəsinə göndərilir.

Vətənpərvərliyi və qorxmazlığı ilə seçilən bu igid qəhrəman Ağdam və Ağdərə uğrunda gedən döyüşlərdə iştirak edir, döyüşçülər arasında öz döyüş bacarığı ilə seçilir.

Əsgərlər arasında "Dağ Qartalı" adı ilə tanınan Lətif Ağayev dəfələrlə döyüş əməliyyatlarında iştirak edərək düşmənə sarsıdıcı zərbələr endirir.

Vətənin qəhrəman oğlu 1993-cü il mart ayının 9-da Ağdərənin Manikli kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin üç rəngli bayrağa bürünmüş cənazəsi doğulduğu Züvüç kəndinə gətirilərək torpağa tapşırılır.



**QADİR ƏLİYEV**
**(1970-1994)**

***Əliyev Qadir Ağababa oğlu-*** 1973-cü ildə Lerik rayonun Şivlə kəndində anadan olub. Sonradan ailə Biləsuvar rayonunun Aşağı Cürəli kəndinə köçərək burada məskunlaşirlar. Qadir Əliyev 1980-ci ildə Aşağı Cürəli kənd məktəbinin birinci sinfinə daxil olaraq orta məktəbi burda oxumalı olur.

Biləsuvarda məskunlaşmalarına baxmayaraq Qadirin doğulduğu Şivlə kəndi ilə əlaqələri kəsilmir. Demək olar ki, Qadirin ömrünün çox hissəsi doğulduğu Şivlə kəndində keçir.

Orta məktəbi bitirdikdən sonra keçmiş Sovet ordu sıralarına çağrılaraq Qorki şəhərinə göndərilir. 1992-ci ildə xidmətini yarımçıq saxlayaraq Vətənə qayıdan Qadir Əliyev könüllü olaraq milli ordu sıralarına yazılır.

Qadir Kəlbəcər rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə iştirak edir və şücaətlər göstərir.

Qısa ömür yaşamasına baxmayaraq hər kəsin məhəbbətini qazanan bu gənc qəhrəman 1994-cü il fevral ayının 13-də Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə ağır yaralanaraq qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi Biləsuvar rayonuna gətirilərək torpağa tapşırılır.



## FƏRƏMƏZ MİKAYILOV
**(1963-1994)**

***Mikayılov Fərəməz Şami oğlu -*** 1963-cü ildə Lerik rayonunun Bülüdül kəndində anadan olub. 1970-cı ildə Bülüdül kənd orta məktəbinin birinci sinfinə qəbul olunub.

1973-cü ildə ailəsi ilə birlikdə Salyan rayonunun Qaraçala kəndinə köçdüklərinə görə təhsilini burada davam etdirməli olur. 1980-cı ildə Qaraçala kənd orta məktəbinin onuncu sinfini bitirir.

Orta məktəbi bitirdikdən sonra 1981-ci ildə həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. 1983-cü ildə hərbi xidmətini başa vuraraq vətənə qayıdır.

1993-cü ildə könüllü olaraq Milli ordu sıralarına qoşulur. Döyüş yolu Ağdam rayonundan keçən Fərəməz bir sıra döyüş əməliyyatlarında iştirak edərək igidliklər göstərir.

Fərəməz Mikayılov 1994-cü il yanvar ayının 19-da Ağdam rayonun Güllücə kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasina şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**FƏRMAN KAZIMOV**
**(1969-1992)**

***Kazımov Fərman Salman oğlu*** - 01 sentyabr 1969-cu ildə Lerik rayonunun Zövnə kəndində kəndli ailəsində anadan olub. 1976-cı ildə Zövnə kəndində ibtidai məktəbin birinci sinfinə daxil olub. 1986-cı ildə Züvüç kənd orta məktəbinin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır.

1991-ci ildə könüllü olaraq Milli ordu sıralarına qoşulur. 836 saylı hərbi hissəsinin tərkibində vuruşur.

Fərman Kazımov 23 sentyabr 1992-ci ildə Ağdamın Fərrux kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

**Zövnə ümumi kənd orta məktəbinin direktoru E. Əliyevin dediklərindən:**

*"Ölümündən 8 gün əvvəl kəndə gəlmişdi. Məktəbdə müəllimlərlə görüşdü. Boynunda avtomatın bir gülləsini sepdən asmışdı. Ona xeyli baxdım. Yadigar almaq istədim. Nədənsə, bu sözü deməyə dilim gəlmədi. Yenə də gülləni qaytarıb ona verdim."*



**MÜBARİZ ZİYADOV**
**(1966-1994)**

***Ziyadov Mübariz Musa oğlu*** – 16 dekabr 1966-cı ildə Lerik rayonunun Çayrud kəndində anadan olub. 1973-cü ildə Çayrud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1984-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra1985-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. 1987-ci ildə xidmətini başa vuraraq vətənə qayıdır.

1989-cu ildə Sumqayıt şəhərinə köçərək Saray qəsəbəsində məskunlaşır.

1993-cü il martın 16-da Mübariz də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq döyüşə yollanır.

Mübariz Ağdərə, Kəlbəcər, Murovdağ və Fizuli uğrunda gedən döyüşlərdə düşmənin hücumlarının qarşısının alınmasında igidliklər göstərir.

1994-cü il mart ayının 14-də Tərtər rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Çayrud kəndinin aşağı kənd orta məktəbi Mübariz Ziyadovun adını daşıyır.



**ELŞƏN SƏFƏROV**
**(1970-1994)**

***Səfərov Elşən Məmmədağa oğlu*** -4 iyul 1970-ci ildə Lerik rayonunun Çayrud kəndində anadan olub. 1977-ci ildə Çayrud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1987-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır.

1993-cü ilin payızında Elşən də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq döyüşə yollanır.

Elşən Ağdam uğrunda gedən döyüşlərdə dəfələrlə amansız düşmənin aramsız hücumlarının qarşısının alınmasında şəxsi döyüş məharəti göstərir.

1994-cü il yanvarın 4-də Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən döyüşlərdə yaralı əsgər yoldaşını döyüş meydanından çıxararkən düşmən gülləsinə tuş gələrək şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Hal-hazırda Çayrud kənd orta məktəbi Elşən Səfərovun adını daşıyır.



## ƏBÜLFƏT MUSAYEV
## (1966-1994)

***Musayev Əbülfət Nəsirulla oğlu*** – 1966-cı ildə Lerik rayonunun Sipyəreğon kəndində anadan olub. 1973-cü ildə Vizəzəmin kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1983-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır.

Qarabağ savaşı başlananda könüllü olaraq Milli ordu sıralarına qoşulur. Əbülfətin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. 1993-cü ildə Fizuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edir, öz döyüş bacarığı ilə seçilərək qəhrəmanlıqlar göstərir.

1994-cü il yanvar ayının 12-də Fizuli rayonu uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Hal-hazırda Vizəzəmin kənd orta məktəbi Musayev Əbülfət Nəsirulla oğlunun adını daşıyır.



**SABİR ƏLİYEV**
**(1962 – 1994)**

**Əliyev Sabir Xeyrulla oğlu –** 02 may 1962-ci ildə Lerik rayonunun Mondigah kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Ali təhsil alıb, ixtisası üzrə müxtəlif yerlərdə əmək fəaliyyəti ilə məşğul olub.

1993-cü ildə Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətindən sonra həmin ilin may ayında könüllü olaraq milli ordu sıralarına qoşulub. Gəncə şəhərində hərbi təlim məşqlərində iştirak edib, daha sonra Ağdam rayonunun Güllücə kəndinə göndərilib.

Sabir Əliyev komandiri olduğu tağımın əsgərləri ilə düşmənə ağır zərbələr endirərək onların çoxlu canlı qüvvəsini məhv edir. Beyləqan cəbhəsində bir sıra döyüş əməliyyatlarında iştirak edir, oradan Fizuli rayonuna göndərilərək Horadizdəki hərbi hissənin qərərgah rəisinin müavini vəzifəsinə təyin edilir. Sabir ordu quruculuğunda fəal iştirak edərək hərbi hissədəki nizam-intizamın yaradılması üçün əlindən gələni əsirgəmir.

1994-cü ilin dekabr ayında qərərgah rəisi vəzifəsinə təyin edilir, elə həmin ildə də torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Onun cənazəsi may ayının 14-də doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Mondigah kənd orta məktəbi Əliyev Sabir Xeyrulla oğlunun adını daşıyır.



## MƏRDAN BÜNYADOV
## (1974-1992)

***Bünyadov Mərdan Sabir oğlu*** – 1974-cü ildə Lerik rayonunun Vizəzəmin kəndində anadan olub. 1981-ci ildə Vizəzəmin kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınıb. Mərdanın döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib.

Mərdan Bünyadov bir əsgər kimi vətən uğrunda canından keçməyə hər an hazır olan igidlərimizdən olub. O, Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib.

Vətən yolunda son damla qanına qədər döyüşəcəyinə and içən bu gənc qəhrəman 1992-ci ildə Kəlbəcər rayonu uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



## ZAMİR TAĞIYEV
## (1976-1998)

***Tağıyev Zamir Atakişi oğlu*** – 25 mart 1976-cı ildə Lerik rayonunun Çayrud kəndində anadan olub. 1983-cü ildə Çayrud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1993-cü ildə həmin məktəbin onuncu sinfini bitirib. Orta məktəbi bitirdikdən sonra 1994-cü ilin iyun ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarınayola salınıb. Üç aylıq çavuşluq kursunu bitirdikdən sonra manqa komandiri təyin edilib. Qusar və Zaqatala rayonlarında xidmətdə olub. Son xidmət yeri isə Qazax rayonu olub.

Zamir Tağıyev 1996-cı il aprelin 26-da Qazax rayonunun Kəmərli kəndindəki döyüş mövqeyində xidməti vəzifəsini yerinə yetirərkən başından yaralanıb. Hərbi hospitalda 10 gün komada qalıb, həkimlər ciddi səy göstərsələrdə, həyatını xilas edə bilməyiblər. O, 1996-cı il may ayının 5-də gözlərini əbədi yumaraq şəhadətə qovuşub. Şəhidin cənazəsi doğulduğu kənddə torpağa tapşırılıb.

1998-ci ildə Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən ona şəhid statusu verilib.



## FAMİL CANIYEV
## (1979-1999)

***Canıyev Famil Bəhram oğlu*** – 18 oktyabr 1979-cu ildə Lerik rayonunun Çayrud kəndində dünyaya gəlib. Sonradan ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçərək burada yaşamağa başlamışlar.

1994-cü ildə 7 nömrəli Sumqayıt şəhər texniki peşə məktəbini bitirib. Litseydə təhsil aldığı müddətdə kimyaçıların idman klubunda karate idman növüylə məşğul olaraq peşəkar idmançı kimi yetişib.

1997-ci ildə Sumqayıt Şəhər Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınıb.

Fizuli rayonunun Horadiz qəsəbəsində xidmət edən Famil 27 yanvar 1999-cu ildə düşmən gülləsinə tuş gələrək ağır yaralanır. Onu hərbi hospitala gətirsələr də həyatını xilas etmək mümkün olmur. Həmin ilin fevral ayının 2-də Famil Canıyev həyatla vidalaşaraq əbədiyyətə qovuşub.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## ƏLİNİYAZ VAHABOV
## (1969 - 1993)

***Vahabov Əliniyaz Əhməd oğlu*** –1969-cu ildə Lerik rayonu-nun Mistan kəndində anadan olub. 1976-cı ildə Mistan kənd orta məktəbinin birinci sinfinə qəbul olunub. 1986-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb. Əliniyaz Rusiya Dəniz Donanmasında xidmət edib, xidmətini başa vurduqdan sonra vətənə qayıdıb.

1992-ci ildə könüllü olaraq milli ordu sıralarına qoşulur və Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak edir. Torpaqlarımızın müdafiəsi zamanı böyük qəhrəmanlıqlar göstərir.

1993-cü il iyul ayının 18-də Ağdam rayonunun müdafiəsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**ZÜLFÜQAR SƏFƏROV**
**(1974-1994)**

***Səfərov Zülfüqar Heydər oğlu*** - 1974-cü il aprelin 24-də Lerik rayonunun Perzəküçə kəndində doğulub. 1991-ci ildə orta məktəbi bitirdikdən sonra ordu sıralarına qəbul olunub.

Uzun bir doyüş yolu keçən Zülfüqarın xidmət yolu Güzdək qəsəbəsində yerləşən hərbi təlim mərkəzindən başlayıb. Zülfüqar bir müddət təlim keçdikdən sonra tank briqadasının tərkibində ön cəbhəyə gedib və Ağdamın Abdal-Gülablı, Uzundərə, Xındırıstan kəndləri ətrafında gedən qanlı döyüşlərdə iştirak edib.

Rəhbərlik Fuzuli cəbhəsindəki vəziyyəti nəzərə alıb tank briqadasını ora göndərir. Zülfüqar Kərimbəyli, Əhmədbəyli, Yuxarı Bəhmənli, Aşağı Seyidəhmədli, İkinci Alışlı kəndlərinin müdafiəsində igidliklər göstərərək düşmənə ağır zərbələr endirir.

Ağdərə doyüşlərində də Zülfüqar xususi fəallıq göstərərək düşmənin xeyli canlı qüvvəsini məhv edib.

Beləliklə, Vətənin qəhrəman oğlu uzun bir döyüş yolu keçib. Döyüş yoldaşları onu Həzi Aslanova bənzədirmiş.

Zülfiqar Səfərov 1994-cü il aprelin 26-da Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olaraq əbədiyyətə qovuşur.



**CƏLAL FƏRZİYEV**
**(1974-1993)**

***Fərziyev Cəlal İbrahim oğlu*** – 1974-cü ildə Lerik rayonunun Perzəküçə kəndində anadan olub. 1981-ci ildə Perzəküçə kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonraLerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

Cəlal Feyziyev Fizuli və Ağdam rayonları uğrunda gedən döyüşlərdə iştirak edərək əsl döyüşçü kimi mətinləşmiş, düşmənə qarşı mübarizədə əsl qəhrəmanlıqlar göstərmişdir. Daha sonra Ağdərə rayonuna göndərilən Cəlal burada da bir sıra uğurlu döyüş əməliyyatlarının iştirakçısı olub.

1993-cü ilin mart ayında Cəlal ağır yaralanır. Ağdam rayonunun səhra hospitalına gətirilsə də, çoxlu qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmur.

Beləliklə, Cəlal həyatla vidalaşaraq şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək dəfn edilir.



**HABİL NƏCİYEV**
**(1973-1993)**

***Nəciyev Habil Xanqulu oğlu*** **-** 1973-cü ildə Lerik rayonunun Noda kəndində anadan olub. 1980-cı ildə Noda kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

1992-ci ildən Milli ordu sıralarında xidmətə başlayan Habil Ağdam və Fizuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək igidliklər göstərib.

1993-cü ildə Fizulidə gedən döyüşlər zamanı yaralı yoldaşını xilas edərkən düşmən gülləsinə tuş gələrək şəhid olub. Şəhidin çənazəsi doğulduğu Noda kəndinə gətirilərək torpağa tapşırılıb.

Noda kənd orta məktəbi Habil Nəciyevin adını daşıyır. Məktəbin girişində şəhidin xatirə lövhəsi asılıb. Habil Nəciyev Noda kəndinin ilk şəhididir.

Habil orta məktəbdə oxuyarkən bu sözlərlə başlayan bir inşa yazıb: *"Əgər mən müharibədə olsaydım, özümü "Alay oğlu" əsərinin qəhrəmanı kimi aparardım. İgidlik və qəhrəmanlıq göstərər, heç olmasa faşistlərdən bir neçəsini öldürərdim. Vətənə faydalı olduğumu başa düşüb sevinərdim."*



**ƏBÜLFƏT KƏRİMOV**
**(1975 – 1996)**

***Kərimov Əbülfət Ağadədə oğlu*** - 1975-ci ildə Lerik rayonunun Pirzəküçə kəndində anadan olub. 1982-ci ildə Anbu kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

Əbülfətin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. Əbülfət Tərtər, Geranboy və Ağdam rayonlarında gedən döyüşlərdə iştirak edərək igidliklər göstərib. Torpaqlarımızın müdafiəsində göstər-diyi rəşadət və hünər komandirləri tərəfindən həmişə qiy-mətləndirilib.

Əbülfət Kərimov 1996-cı ildə Ağdam rayonunda xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



## KƏNAN KƏRİMOV
## (1976 – 1998)

***Kərimov Kənan Əsgər oğlu*** - 19 iyun 1976-cı ildə Lerik rayonunun Pirzəküçə kəndində dünyaya göz açıb. 1983-cü ildə Anbu kənd orta məktəbinin 1-ci sinfinə daxil olub, 1993-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lənkəran sürücülük məktəbinə daxil olub. 26 iyun 1995-ci il tarixində Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə yola salınıb. Kənan müxtəlif hərbi hissələrdə qulluq edib, xidməti dövründə özünü nizam-intizamlı əsgər kimi göstərib, komandirlərinin rəğbətini qazanaraq manqa komandiri təyin edilib.

15 sentyabr 1997-ci ildə döyüş bölgəsində yerləşən 161 saylı hərbi hissəyə göndərilib.

Torpaqlarımızın keşiyində ayıq-sayıq dayanan Kənan Kərimov 20 mart 1998-ci il tarixində xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 05 mart 1999-cu il tarixli 35 saylı qərarına əsasən Kərimov Kənan Əsgər oğluna şəhid statusu verilib.

Qardaşı Kərimov Şəhriyar Qarabağ müharibəsi veteranıdır.



**QƏDİR RAMAZANOV**
**(1976-1995)**

***Ramazanov Qədir İslam oğlu-*** 1976-cı il oktyabr ayının 20-də Lerik rayonunun Siyov kəndində doğulub. Qədir on bir uşaqlı ailənin ikinci övladı idi. Böyük qardaşı Qabil daxili qoşunlarda xidmət edib. 1993-cü ildə Ağdərə və Ağdam döyüşlərinin iştirakçısı olur, 1994-cü ilin yanvar ayında Fizuli cəbhəsində mina partlayışı nəticəsində yaralanıb və sağ çiyini sınır. Hospitalda müalicə olunduqdan sonra xidmət etdiyi hərbi hissədən tərxis edilib. Qədir 1983-cü ildə Siyov kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1993-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

1994-cü il noyabr ayının birində Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

Qədirin döyüş yolu Fizuli rayonundan başlayıb. Qədir Ramazanov bir sıra uğurlu əməliyyatların iştirakçısı olub, torpaqlarımızın müdafiə olunmasında şəxsi igidliklər göstərib.

Qədir Ramazanov 1995-ci il noyabr ayının 10-da Beyləqan rayonunun Alayar kəndi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olaraq əbədiyyətə qovuşub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**HƏMİD HƏMİDOV**
**(1972-1994)**

***Həmidov Həmid İsaq oğlu -*** 1972-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində anadan olub. Cəngəmiran kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra təhsilini peşə məktəbində davam etdirib.

Peşə məktəbini bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Həmid keçmiş Sovet ordu sıralarına yola salınıb.

Qarabağ savaşı başlandığına görə hərbi xidməti yarımçıq saxlayaraq vətənə qayıdıb və könüllü olaraq milli ordu sıralarına qoşulub.

Həmid Həmidovun döyüş yolu Ağdam rayonundan başlayır. Vətənin bu igid oğlu Ağdamın bir çox kəndlərinin müdafiəsində igidliklər göstərərək düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir.

6 yanvar 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən qızğın döyuşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək “Xəlifə Zəkəriyyə” qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilib.



**BAKİR MƏMMƏDOV**
**(1971-1994)**

***Məmmədov Bakir İxtiyar oğlu*** – 1971-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində doğulub. 1978-ci ildə Cəngəmiran kənd tam orta məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbibi tirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb. Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır.

Qarabağ savaşı başlyanda Bakir də digər yurddaşları kimi könüllü olaraq milli ordu sıralarına qoşulur.

Bakirin döyüş yolu Ağdam rayonundan başlayır. Vətənin bu qəhrəman oğlu Ağdamın bir çox kəndlərinin azad edilməsində iştirak edərək igidliklər göstərir.

Bakir Məmmədov 1994-cü ilin yanvar ayında Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən qızğın döyuşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək "Xəlifə Zəkəriyyə" qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilib.



**TƏHSİN CƏFƏROV**
**(1973-1992)**

***Cəfərov Təhsin Almas oğlu***– 17 noyabr 1973-cü ildə Lerik rayonunun Soru kəndində anadan olub. Təhsin Cəfərov 1978-ci ildə Soru kənd tam orta məktəbinin hazırlıq sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonraLerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Təhsin Cəfərov cəbhə bölgəsinə yola salınıb.

Təhsin Cəfərovun döyüş yolu Ağdam şəhərində yerləşən batalyondan başlayır. Vətənin bu igid oğlu Ağdamın Quzanlı, Mərizli və digər kəndlərin müdafiəsində igidliklər göstərərək düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir. Döyüş meydanını xain düşmənlərə məzara çevirən Təhsin qorxmazlığı və döyüş bacarığı ilə seçilərək hər kəsin hörmətini qazanır, döyüşün ən qaynar nöqtələrinə irəliləyərək düşməni ağır itkilərlə geri çəkilməyə məcbur edir.

Təhsin Cəfərov 22 oktyabr 1992-ci ildə Ağdam rayonunun Mərizli kəndi uğrunda gedən qızğın döyuşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır.

Soru kənd tam orta məktəbi şəhid Təhsin Cəfərovun adını daşıyır. Məktəbin həyətində şəhidin büstü ucaldılıb.



## RAKİF BABAYEV
## (1973-1993)

***Babayev Rakif Cəlal oğlu-*** 1973-cü ildə Lerik rayonunun Vov kəndində anadan olub. On üç uşaqlı ailənin on birinci övladı idi vətənin bu qəhrəman oğlu. Rakif Babayev 1980-ci ildə Vov kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

1991-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə göndərilir. O, yenicə formalaşmağa başlayan Milli ordu sıralarında şərəflə xidmətə başlayır.

Rakifin döyüş yolu əsasən Ağdam cəbhəsindən keçir. Rakif Babayev cəbhə bölgəsindəki bir sıra uğurlu əməliyyatlarda iştirak edərək qəhrəmanlıqlar göstərib. O, döyüş yoldaşları ilə bərabər Ağdamın Yeni Əfirəli kəndindəki döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını sıradan çıxararaq məhv edir.

Rakif Babayev 1993-cü il avqust ayının 9-da Ağdam rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**ƏHƏD RZAYEV**
**(1973-1994)**

***Rzayev Əhəd Əsgər oğlu***– 1973-cü ildə Lerik rayonunun Orand kəndində anadan olub. 1980-cı ildə Orand kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Əhəd Milli ordu sıralarına yola salınıb. O vaxtlar hələ ordumuz yenicə formalaşmağa başlayırdı. Əhəd kimi vətənpərvər oğulların orduda yer alması orduya yeni güc qatırdı. Çünki bu elə bir vaxt idi ki, əli silah tutan hər bir Vətən oğluna ehtiyac duyulurdu. Vətən darda idi, haray istəyirdi.

Əhədin döyüş yolu Ağdərə rayonundan başlayır. Ağdərə rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə mərdliklə vuruşaraq igidliklər göstərir.

Sonradan Əhədi Fizuli rayonuna göndərirlər. O,Fizuli rayonunun müdafiəsində və Horadiz uğrunda gedən döyüşlərdə iştirak edir.

Əhəd Rzayev 13 aprel 1994-cü ildə Horadiz uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi Lerik rayona gətirilərək doğulduğu Orand kəndində torpağa tapşırılır.



## ELMAS RUHULLAYEV
## (1973-1994)

***Ruhullayev Elmas İbrahim oğlu*** - 1973-cü ildə Lerik rayonunun Cəngəmiran kəndində anadan olub. 1990-cı ildə Cəngəmiran kənd orta məktəbinin onuncu sinfini bitirib. Böyük arzularla yaşayan Elmas orta məktəbdə oxumaqla yanaşı Lerik rayon musiqi məktəbində də təhsil alırdı.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağrılan Elmas keçmiş Sovet ordu sıralarına yola salınıb.

Hərbi xidmətdən qayıtdıqdan sonra təhsilini davam etdirib musiqiçi olmaq arzusundaydı Elmas. Lakin hər şey tam tərsinə oldu. Qarabağ savaşı başlandığına görə digər həmvətənləri kimi, Elmas da xidmətini yarımçıq qoyub vətənə qayıdır və könüllü olaraq milli ordu sıralarına qoşulur.

Döyüş yolu Ağdam rayonundan başlayan vətənin bu igid oğlu Ağdamın bir çox kəndlərinin müdafiəsində igidliklər göstərərək düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir.

Elmas Ruhullayev 6 yanvar 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən qızğın döyuşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi Lerik rayona gətirilərək doğulduğu Cəngəmiran kəndində torpağa tapşırılır.



**QƏDİR NƏZƏROV**
**(1974-1993)**

***Nəzərov Qədir Xudabağış oğlu*** – 1974-cü il yanvar ayının 31-də Lerik rayonun Cəngəmiran kəndində anadan olub. 1991-ci ildə Cəngəmiran kənd orta məktəbinin onuncu sinfini bitirib. Hərbçi olmaq arzusuyla yaşayan Qədir orta məktəbi bitirdikdən sonra sənədlərini Bakı Ali Hərbi məktəbinə verir, lakin müsabiqədən keçə bilmədiyinə görə kəndə qayıdır.

1992-ci ilin iyun ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Qədirin döyüş yolu Ağdərə rayonundan başlayır. Bu zaman Ağdərə uğrunda qanlı döyüşlər gedirdi. Vətənin bu qəhrəman oğlu Ağdərənin müdafiəsində igidliklər göstərmiş, düşmənə ağır və sarsıdıcı zərbələr endirir.

Ürəyi vətən sevgisiylə çağlayan Qədir Nəzərov 1993-cü il fevral ayının 5-də Ağdərə rayonunun Mehmanə kəndi uğrunda gedən qızğın döyuşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək Xəlifə Zəkəriyyə qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilib.

Lerik rayonundakı küçələrdən biri Qədir Nəzərovun adını daşıyır.



## KAMAL CAHANGİROV
## (1968-1994)

***Cahangirov Kamal Şahverən oğlu*** - 1968-ci ildə Lerik rayonunun Cəngəmiran kəndində anadan olub. Cəngəmiran kənd orta məktəbinin onuncu sinfini bitirib. Orta məktəbdə oxuduğu illərdə bilik və bacarığı ilə müəllimlərinin hörmətini qazanmışdır. Sakit təbiətli bir insan olmuş, haqsızlığa heç vaxt biganə qalmayıb.

Məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən hərbi xidmətə çağrılan Həmid keçmiş Sovet ordu sıralarına yola salınmışdır. Hərbi xidmətini Sovet ordu sıralarında keçmişdir. Kamal doğma vətənə qayıdanda artıq mənfur qonşularımız Qarabağda baş qaldıraraq qarışıqlıq yaratmışdılar. Qarabağ savaşı başlayanda digər həmvətənləri kimi Kamal da könüllü olaraq milli ordu sıralarına qoşularaq cəbhəyə yollanıb.

Döyüş yolu Fizuli rayonundan başlayan vətənin igid oğlu Fizulinin bir çox kəndlərinin müdafiəsində igidliklər göstərib.

Kamal Cahangirov 19 yanvar 1994-cü ildə Fizuli rayonunun Aşağı Seyid-Əhmədli kəndi uğrunda gedən qızğın döyüşlərdə canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalıb. Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək Xəlifə Zəkəriyyə qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilib.



**ELDAR ŞALİYEV**
**(1974-1993)**

***Şaliyev Eldar Ağabala oğlu*** – 1974-cü ildə Lerik rayonunun Ancəqəv kəndində anadan olub. 1981-ci il sentyabr ayının 1-də Bobla kənd 8 illik məktəbinin 1-ci sinfinə daxil olub, 1989-cu ilin iyun ayında oranı bitirib. 1989 cu ilin sentyabr ayının 1-də Lerik rayonun 20-ci km. kənd orta məktəbinin 9-cu sinfinə daxil olub, 1991-ci ildə oranı bitirib. Həmin ilin sentyabr ayında Lerik rayon Hərbi komissarlığının göndərişi ilə Lənkəran şəhərində yerləşən sürücülük məktəbinə daxil olub, 1992-ci ilin mayında oranı bitirib.

1992-ci ilin sentyabr ayında həqiqi hərbi xidmətə yola salınıb. Hərbi xidmətə Perekeşküldə yerləşən hərbi toplanış məntəqəsindən başlayıb. Burada təlim keçdikdən sonra Ağdərə rayonuna göndərilmiş, ordakı döyüşlərində iştirak edib.

1993-cü il mart ayında Ağdərə döyüşlərində ağır yaralanaraq Mərkəzləşdirilmiş Hərbi Hospitala gətirilib, lakin həyatını xilas etmək mümkün olmayıb.

Beləliklə, 1993 cü il aprel ayinin 5-də Eldar gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə ucalıb.

Təhsil aldığı Bobla kənd natamam orta məktəbi Eldar Şaliyevin adını daşıyır.



**TALIŞXAN SADIXOV**
**(1978-1997)**

***Sadıxov Talışxan Xudakərim oğlu*** - 1978-ci ildə Lerik rayonunun Orand kəndində anadan olub. 1985-ci ildə Orand kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1995-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 1996-cı il iyun ayının 5-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Talışxan Şəmkir rayonundakı hərbi korpusa yola salınır. Oradan isə Qazax rayonunda yerləşən hərbi hissəyə göndərilir.

1994-cü ildən atəşkəs rejiminin elan olunmasına baxmayaraq mənfur qonşularımız xain niyyətlərindən əl çəkmir, vaxtaşırı Milli ordumuzun mövqelərinə qəfil hücumlar təşkil edirlər.

Torpaqlarımızın müdafiəsində ayıq-sayıq keşik çəkən Talışxan dəfələrlə bu hücumların qarşısının alınmasında igidliklər göstərir.

Talışxan Sadıxov növbəti döyüşlərin birində 1997-ci il sentiyabrın 15-də Qazax rayonunda qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**VALEH RƏHİMOV**
**(1976-1995)**

***Rəhimov Valeh Yaqub oğlu*** – 29 fevral 1976-cı ildə Lerik rayonu Veri-Əliabad kəndində anadan olub. 1983-cü ildə Veri-Əliabad 8-illik kənd natamam orta məktəbinin birinci sinfinə daxil olub, 1993-cü ildə Veri kənd orta məktəbinin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 1994-cü ildə Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq cəbhə bölgəsinə yola salınıb.

Valeh Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş, düşmənə qarşı mübarizədə fəallıq göstərərək öz əsgəri borcunu yerinə yetirməyə çalışıb.

Valeh Rəhimov 11 fevral 1995-ci ildə Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyinin müdafiəsi zamanı şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək Veri-Əliabad kənd qəbiristanlığında dəfn olunub.

Ölümündən sonra oxuduğu Veri-Əliabad kənd məktəbinə onun adı verilib.



**BALAMİR MƏMMƏDOV**
**(1974-1993)**

***Balamir Şirməmməd oğlu*** – 1974-cü ildə Lerik rayonunun Küsəkəran kəndində anadan olub. 1989-cu ildə Küsəkəran kənd natamam orta və 1991-ci ildə Veri kənd orta məktəblərini bitirib.

1992-ci ildə Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq cəbhə bölgəsinə göndərilib. Balamir Məmmədov Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən bir sira uğurlu əməliyyatlarda iştirak edərək torpaqlarımızın müdafiə olunmasında igidliklər göstərib. O, döyüş meydanında şücaətlər göstərərək xidmət etdiyi hərbi hissədə qorxmaz və igid bir əsgər kimi tanınaraq hamının hörmətini qazanmışdı. Yurdunu, vətənini göz bəbəyi kimi qorumağa çalışan Balamir döyüşə atılanda aslan kimi döyüşür, avtomatından düşmənə mərmi deyil, sanki nifrət püskürürdü.

Yurdumuzun igid oğlu 1993-cü ilin mart ayında Ağdərə rayonunun Çıldıran bölgəsi uğrunda gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Ölümündən sonra təhsil aldığı Küsəkəran kənd natamam orta məktəbinə onun adı verilib.



## ƏHLİMAN ƏLİYEV
## (1969-1994)

***Əliyev Əhliman Ağaxan oğlu*** – 1969-cu il yanvar ayının 9-da Lerik rayonunun Blaband kəndində anadan olub. 1976-cı ildə Blaband kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1986-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə yola salınıb. Hərbi xidmətini Sovet ordu sıralarında başa vurub.

Əhliman ordu sıralarından tərxis olunduğu vaxt artıq mənfur qonşularımız torpaqlarımıza göz dikərək Qarabağda qarışıqlıq yaratmağa başlamışdı. Düşmənin əliyalın xalqa qarşı törətdiyi vəhşiliyə Əhliman kimi oğullarımız biganə qalmayaraq yenicə yaranmağa başlayan ordu sıralarına qoşulurdular.

Azərbaycan Respublikası Prezidentinin xalqa müraciətindən sonra digər vətənpərvər oğullarımız kimi Əhliman da 1993-cü ildə könüllü olaraq milli ordu sıralarına qoşulub. O, Fizuli rayonu uğrunda gedən döyüşlərdə iştirak etmiş, qorxmazlığı və şücaəti ilə seçilib.

Əhliman Əliyev 1994-cü ilin aprel ayında Fizuli rayonu uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

Ölümündən sonra Blaband kənd klubuna Əliyev Əhliman Ağaxan oğlunun adı verilərək şəhidin xatirəsi əbədiləşdirilib.



## ZƏFƏR SƏFƏROV
## (1975-1994)

***Səfərov Zəfər Ağayar oğlu*** - 1975-ci il iyun ayının 7-də Lerik rayonunun Blaband kəndində anadan olub. 1982-ci ildə Blaband kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

Qarabağ döyüşlərində iştirak edərək qəhrəmanlıqlar göstərən Zəfərin son döyüş yeri Murov cəbhəsi olub. Zəfər yoldaşları ilə çətin dağ şəraitində düşmənə qarşı mübarizə apararaq onların mövqelərinə ağır zərbələr endirir. Döyüşlərin birində yaralı əsgər yoldaşını döyüş meydanından uzaqlaşdırmış, lakin geri dönərkən xain düşmən gülləsinə tuş gəlib.

Beləliklə, yurdumuzun qəhrəman oğlu 19 aprel 1994-cü ildə Murovdağ uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Blaband kənd orta məktəbi Səfərov Zəfər Ağayar oğlunun adını daşıyır.



**SALEH BABAYEV**
**(1972-1994)**

***Babayev Saleh Azadxan oğlu*** – 1972-ci ildə Lerik rayonunun Bülüdül kəndində anadan olub. 1979-cu ildə Bülüdül kənd orta məktəbinin birinci sinfinə daxil olmuşdur. Sonradan ailəsi Biləsuvar rayonuna köçdüyündən orta təhsilini burada başa vurmalı olur.

Orta məktəbi bitirdikdən sonrahərbi xidmətə çağrılaraq Sovet ordu sıralarına yola salınır.

Ordudan tərxis olunan kimi könüllü olaraq milli ordu sıralarına yazılır. Əmisi oğlu Rza ilə çiyin-çiyinə döyüşən Saleh Qubadlıda, Zəngilanda, Ağdərədə, Murovdağda, Ağdamda, Fizulidə, Qızılqayada düşmənə sarsıdıcı zərbələr endirir.

Qızılqaya döyüşündə Rzanı itirdikdən sonra düşmənə qarşı son gülləsinə qədər döyüşəcəyinə and içən Saleh döyüş meydanına atılaraq yaralı aslan kimi düşmən mövqelərinə zərbələr endirir. Bu döyüşlərdə o düşmənin iki piyada döyüş maşınını və çoxlu canlı qüvvəsini məhv edir. Buna görə Saleh komandirliyin təsis etdiyi pul mükafatına sahib olur.

Döyüşdən-döyüşə atılaraq peşəkar döyüşçü kimi püxtələşmiş qəhrəman vətən oğlu düşməni susdurmaq üçün əsl qəhrəmanlıq nümayiş etdirib.

Nəhayət, Saleh Babayev 17 yanvar 1994-cü ildə Ağdam uğrunda gedən döyüşlərdə xain düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.



## VALEH İBRAHİMOV
## (1973-1992)

***İbrahimov Valeh Allahyar oğlu*** – 1973-cü ildə Lerik qəsəbəsində anadan olub. 1980-ci ildə Lerik qəsəbəsindəki iki saylı orta məktəbin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinəyola salınıb.

1992-ci ilin may ayında Valehin döyüş sınağı başlayır. O, Qarabağ döyüşlərində bir çox uğurlu döyüş əməliyyatlarda iştirak edərək qəhrəmanlıqlar göstərib.

Döyüşçü dostlarının dediyinə görə Valeh ölümlə üz-üzə gəlməkdən heç vaxt qorxmazmış. Hər döyüşdə sərrast atəşləri ilə düşmənin çox sayda canlı qüvvəsini məhv edər, dostlarını qələbəyə səsləyərək ruhlandırarmış.

Qəlbi vətən sevgisiylə çırpınan, vətən uğrunda şəhid olmağı şərəf sayan Vətən oğlundan ancaq bunu gözləmək olardı.

Döyüş meydanını düşmən üçün cəhənnəmə cevirən Valeh İbrahimov 1992-ci ilin noyabr ayında düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.



**NAMİQ ƏLİYEV**
**(1973-1993)**

***Əliyev Namiq Rəcəbəli oğlu*** - 1973-cü ildə Lerik rayonunun Osnağakücə kəndində anadan olub. 1980-cı ildə Osnağakücə kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

Namiqin döyüş yolu 1993-cü ilin aprel ayında Ağdərə cəbhəsindən başlayıb. O Akop-Kamari, Tonaşen, Dastagir, Talış, Mehritaq, Madagiz, Levonark, Verin-Çaylı, Papravənd, Ağdərə rayonları və bu yaşayış məntəqələrinə bağlı yüksəkliklər uğrunda gedən döyüşlərdə bacarıqlı kəşviyyatçı kimi iştirak edərək neçə əlverişli mövqeyin ələ keçirilməsində əsl igidlik nümayiş etdirib. Namiq Papravənd vuruşmasında mövqelərimizə xeyli yaxınlaşan düşmən texnikasını məhv etmiş, Madagiz ətrafındakı qanlı döyüşlərdə isə düşmənin artlerya qurğularını sıradan çıxararaq döyüş yoldaşlarını ölümün pəncəsindən xilas edib.

Namiq Əliyev 1993-cü il dekabr ayının 27-də Madagiz uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.



**MALİK BAĞIŞOV**
**(1974-1995)**

***Bağışov Malik Sədaqət oğlu*** - 1974-cü ildə Lerik rayonunda anadan olub. 1981-ci ildə Lerik qəsəbə 3 saylı orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə Lerik qəsəbə 1 saylı orta məktəbin onuncu sinfini bitirib. Elə həmin ildə də Bakı Maşınqayırma Texnikumuna daxil olub.

1992-ci ildə təhsilini yarımçıq qoyaraq Vətənin dar günündə onun müdafiəsinə qoşulub. Beləliklə, qısa hərbi təlim keçdikdən sonra ön cəbhəyə, düşmənlə mübarizəyə yollanıb.

Malik Bağışov Ağdam, Fizuli, Xocəvənd, Beyləqan rayonunun Haramı düzündə düşmənə qarşı mübarizədə fəal iştirak etmişdir. Döyüşlərdə fərqləndiyinə görə dəfələrlə komandirlərinin təşəkkürlərinə layiq görülmüşdür.

Malik Şişqaya ətrafındakı döyüşlərdə xüsusiylə fərqlənir, cəsur döyüşçü kimi Vətən yolunda canından keçməyə hazır olduğunu bir daha nümayiş etdirir.

Yurdumuzun igid oğlu 20 fevral 1995-ci ildə döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olur.

Lerik qəsəbə 3 saylı orta məktəbi Bağışov Malik Sədaqət oğlunun adını daşıyır.

Böyük qardaşı Namiq Bağışov Qarabağ müharibəsi veteranıdır.



**KATİBƏLİ HƏMİDOV**
**(1961-1992)**

***Həmidov Katibəli Tərlan oğlu*** – 1961-ci ildə Lerik rayonunun Perzəküçə kəndində anadan olub. 1968-ci ildə Perzəkücə kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1978-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağrılaraq Sovet ordu sıralarına yola salınır. Ordudan tərxis olunduqdan sonra Qaradağ rayonuna köçərək Ələt qəsəbəsində məskunlaşır.

1992-ci il iyun ayının 21-də könüllü olaraq milli ordu sıralarına yazılır. Katibəli Kəlbəcər uğrunda gedən döyüşlərdə misilsiz şücaətlər göstərir. Bunu komandirlərinin məktubları da təsdiqləyir.

Düşmənə qarşı keçirilən döyüş əməliyyatlarında hər zaman öndə gedən, dəfələrlə sərrast atəşləriylə düşmənin çox sayda canlı qüvvəsini məhv edərək sıradan çıxaran Katibəli əsgəri borcunu şərəflə yerinə yetirib.

Katibəli Həmidov 1992-ci il avqustun 21-də Kəlbəcər uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.

Ölümündən sonra Anbu kənd orta məktəbinə Həmidov Katibəli Tərlan oğlunun adı verilib.



**TELMAN İSMAYILOV**
**(1974-1993)**

***İsmayılov Telman Bayraməli oğlu*** – 1974-cü ilin mart ayında Lerik rayonunun Buruq kəndində anadan olub. 1981-ci ildə Buruq kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılır. Telman İsmayılov 1992-ci il oktyabr ayının 12-də Ağdam cəbhəsinə yola salınır.

Telman Hərbi xidmətə Ağdam rayonunda yerləşən Eldar Bağırov adına 846 saylı hərbi hissədə başlayır.

Hərbi təlim keçdikdən sonra qaynar döyüş nöqtələrinə göndərilən Telman döyüşlərdə fəallıq göstərərək düşmən həmlələrinin qarşısının alınmasında böyük igidlik nümayiş etdirir.

Ağdam rayonu uğrunda gedən döyüşlərdə qəhrəmanlıqlarıyla ad çıxaran Telman İsmayılov 1993-cü il iyun ayının 19-da düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək şərəflə torpağa tapşırılıb.



**RAMİZ ƏKBƏROV**
**(1963-1994)**

***Əkbərov Ramiz Əzizxan oğlu*** – 1963-cü ildə Lerik rayonunun Murya kəndində anadan olub. 1971-ci ildə Murya kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1981-ci ildə hənin məktəbin onuncu sinfini bitirib.

Ali təhsil almaqdan ötrü sənədlərini Bakı Yüngül Sənaye Texnikumuna verərək ora qəbul olunub.

Texnikumu bitirdikdən sonra Ramiz təyinatla Ələt qəsəbəsindəki Ağac emalı kombinatına göndərilib. Bu kombinatda işlədiyi müddətdə o, kollektivin rəğbətini qazanmış, mülayim rəftarına görə hər kəs ona hörmət və sevgiylə yanaşıb.

Kombinatda işləməyinə baxmayaraq Qarabağda xain düşmənin törətdiyi vəhşiliklər biran olsun belə Ramizi rahat buraxmırdı. Ən nəhayət, ölkə prezidentinin 1993-cü ilin dekabr ayında xalqa etdiyi müraciətindən sonra Ramiz Əkbərov könüllü olaraq milli ordu sıralarına qoşulub.

Kəlbəcər uğrunda gedən ölüm-dirim savaşında iştirak edən Ramiz silahdaşlarıyla birgə düşmənə qarşı mübarizə aparıb və döyüşlərdə şəxsi igidlik göstərib.

Ramiz Əkbərov 1994-cü ildə Kəlbəcər rayonu uğrunda gedən qanlı müharibələrin birində qəhrəmancasına şəhid olub.



**ƏBÜLFƏZ MƏMMƏDOV**
**(1968 – 1993)**

***Məmmədov Əbülfəz Sərdar oğlu*** – 23 fevral 1968-ci ildə Lerik rayonunun Mastayıl kəndində anadan olub. 1975-ci ildə Mastayıl kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1985-ci ildə hənin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağrılaraq Sovet ordu sıralarına yola salınıb. Ordudan tərxis olunduqdan sonra Ali təhsil almaqdan ötrü sənədlərini Azərbaycan Dövlət Universitetinə verərək ora qəbul olunub. Universitetdə oxuduğu zaman Qarabağda baş verən hadisələr onu rahat buraxmırdı. Əbülfəzin narahatçılığını müəllimləri də hiss edirdi. Hətta bir dəfə oxuduğu fakültənin dosenti Əmrah Dadaşov səbəbini soruşduqda: *"Heç, elə-belə, müəllim, hər şey qaydasındadı",* - demişdi.

Nəhayət, ürəyi dözməyib 1992-ci ildə universitetin dördüncü kursunda təhsil alarkən təhsilini yarımçıq qoyub könüllü olaraq milli ordu sıralarına qoşulub.

O, Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak etmiş və qəhrəmanlıqlar göstərib.

Əbülfəz Məmmədov 1994-cü il yanvar ayının 19-da Ağdərə rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



## MEHMAN AĞAYEV
## (1971-1994)

***Ağayev Mehman Nəriman oğlu*** – 05 oktyabr 1971-ci ildə Lerik rayonunun Almu kəndində anadan olub. 1978-ci ildə Sumqayıt şəhərində 24 saylı məktəbin birinci sinfini daxil olub, 1982-ci ildə Lerik rayonuna gələrək Almu kənd səkkizillik məktəbində təhsilini davam etdirmişdir. 1988-ci ildə Vizəzəmin kənd orta məktəbinin onuncu sinfinin bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb. Hərbi xidmətini Almaniya Respublikasında başa vurub. Xidmətdə olduğu zaman zabitlik kursunu oxuyaraq leytenant rütbəsinə yiyələnib.

Hərbi xidmətdən qayıtdıqdan sonra 1992-ci ildə könüllü olaraq milli ordu sıralarına qoşulmuşdur. Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək böyük hünər və rəşadət göstərmiş, döyüşlərin birində yaralanaraq Lerikə qayıtmış, sağaldıqdan sonra yenidən cəbhə bölgəsinə yollanıb.

Qəhrəman döyüşçü Mehman Ağayev 11 aprel 1994-cü ildə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi Sumqayıt şəhərinə gətirilərək torpağa tapşırılıb.



**ELŞƏN ŞAHPƏLƏNGOV**
**(1973 – 1992)**

***Elşən Mirzəhüseyn oğlu –*** 1973-cü il fevralın 15-də Lerik rayonunun Murya kəndində anadan olub. 1980-ci ildə Murya kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1990-ci ildə hənin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbini bitirdikdən sonra ali təhsil almaqdan ötrü sənədlərini Bakı Dövlət Universitetinə təqdim edib.

1992-ci ilin aprel ayında könüllü olaraq Milli ordu sıralarına qoşulub, üç ay Bakı şəhərində təlim keçdikdən sonra Qarabağa, Ağdərə rayonuna yola salınıb.

Elşən Sərsəng su anbarının geri alınması uğrunda döyüşlərdə iştirak edir. İştirak etdiyi döyüşlərdə səxsi igidliklər göstərib, döyüş bacarığı ilə seçilib.

Elşən Şahpələngov 22 iyul 1992-ci il tarixində Ağdərə rayonunda yerləşən Sərsəng su anbarı ətrafında gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.

Ölümündən sonra Murya kənd orta məktəbinə Şahpələngov Elşən Mirzəhüseyn oğlunun adı verilib.



## ŞƏMSİ QƏRİBOV
## (1975 – 1997)

***Qəribov Şəmsi Alixan oğlu*** – 1975-ci ildəLerik rayonun Murya kəndində anadan olub. 1982-ci ildə Murya kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1992-ci ildə həmin məktəbini onuncu sinfini bitirib. 1993-cü ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınır. Yaxşı və nümunəvi xidmətinə görə tez bir zamanda komandirləri tərəfindən ona çavuş hərbi rütbəsi verilir.

Şəmsi Ağdərə, Tərtər, Çayıllı, Meşəli, Marquşavan, Talış və s. kəndlərdə gedən döyüşlərdə şəxsi igidlik göstərir. Yaxşı xidmətinə görə hərbi məktəbdə oxumağa göndərilir və hərbi məktəbi bitirdikdən sonra gizir rütbəsi ilə Goranboy rayonunda yerlşən 130 saylı hərbi hissəyə qayıdır. Qayıdan kimi mühəndis istehkam bölüyünün tağım komandiri vəzifəsinə başlayır. Nümunəvi xidmətinə görə dəfələrlə komandirlərin fəxri fərmanı ilə təltif olunub.

14 oktyabr 1997-ci ildə döyüş tapşırıqlarını yerinə yetirərkən mina partlayışı nəticəsində şəhid olub.

Livərdiqə kənd mədəniyyət evi Qəribov Şəmsi Alixan oğlunun adını daşıyır.

**Nur Aydın Manaflının  Şəmsi haqqında fikirləri:**

*Şəmsi hərbi xidmətini başa vurduqdan sonra öz istəyi ilə orduda qalıb vətənə xidmət etməyi seçdi. Kənddə bizimlə qonşu idi. Hamıya əl tutan, işinə yarıyan bir insan idi. Yerini bilən, ağsaqqala hörmət edən, özündən kiçiklərə yol göstərən idi Şəmsi. İndi hamı Vətənin bu şəhid oğlu ilə fəxr edir. Ruhu şad olsun!*



## ŞAHİN SADIXOV
## ( 1974 – 1994 )

***Sadıxov Şahin Xanhüseyn oğlu*** – 1974-cü ildə Lerik rayonunun Əvilə kəndində anadan olub. 1981-ci ildə Əvilə kənd səkkizillik məktəbinin birinci sinfinə daxil olub, 1989-cu ildə həmin məktəbi bitirib. Daha sonra təhsilini Murya kənd orta məktəbində davam etdirmiş, 1991-ci ildə Murya kənd orta məktəbinin onuncu sinfini bitirib.

Ali təhsil almaqdan ötrü Bakı şəhərinə gedərək Bakı Rabitə Texnikomuna qəbul olunub.

Qarabağ savaşı başlandığından Şahin təhsilini yarımçıq saxlayıb könüllü olaraq cəbhəyə yollanıb. Torpaqlarımızın müdafiəsində şəxsi igidliklər göstərib, dəfələrlə komandirlərinin fəxri fərmanları ilə təltif olunub.

Vətənin igid oğlu 19 may 1994-cü ildə Tərtər rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ölümündən sonra şəhidin adı əbədiləşdirilib, Lerik rayon Xalq Deputatları Soveti Rəyasət Heyətinin 15 iyul 1994-cü il 46 saylı qərarı ilə oxuduğu Əvilə kənd əsas orta məktəbinə şəhid Şahin Xanhüseyn oğlu Sadıxovun adı verilib.



## XAQANİ RÜSTƏMOV
## (19?? – 1992)

***Rüstəmov Xaqani Xanıbəy oğlu*** –Bakı şəhərində anadan olub. Atası Xanıbəy Lerik rayonunun Brkandül kəndindəndir. Babası Xanəli 1937-ci ilin represiya qurbanlarındandır. Xaqani orta məktəbi Bakı şəhərindəki məktəblərdən birində başa vurub. C. Naxçıvanski adına Ali Hərbi məktəbdə təhsil almış, məktəbi bitirdikdən sonra Kazan Ali Hərbi Tank məktəbinə daxil olub. Bu məktəbi bitirdikdən sonra Svedlovskda xidmət edib. Daha sonra keçmiş sovetlər birliyinin Əfqanıstandakı məhdud qoşun kontingentindəki xüsusi dəstənin komandiri olub.

Qarabağ savaşı başlayanda Xaqani də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq milli ordu sıralarına qoşularaq bir zabit kimi ordumuzun formalaşmasında böyük xidmətlər göstərib. Xaqaninin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. O, Qarabağ uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib, döyüş taktikası ilə dəfələrlə düşməni ağır məğlubiyyətə uğradaraq onların çoxlu canlı qüvvəsini və döyüş texnikasını sıradan çıxarıb. Adını eşidəndə qorxuya düşən xain düşmən bu qəhrəman vətən oğlunun başı üçün 1000 dollar pul da ayırıbmışlar..

Cəsur kapitan Xaqani Rüstəmov 1992-cü ilin may ayında torpaqlarımız uğrunda gedən qanlı döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.



## QİYAS ƏHƏDOV
## (1974 – 1993)

***Əhədov Qiyas İsaxan oğlu*** – 1974-cü il aprel ayının 12-də Lerik rayonunun Xanagah kəndində anadan olub. 1981-ci ildə Xanagah kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınıb.

Qiyasın döyüş yolu Laçın cəbhəsindən başlyır. Laçın uğrunda gedən döyüşlərdə iştirak edib və qəhrəmanlıqlar göstərib.

1993-cü ilin sentyabr ayında Beyləqan istiqamətində gedən döyüşlərdə iştirak edib. Bu döyüşlərdə Qiyas xüsusi döyüş məharəti göstərərək düşmənin çoxlu canlı qüvvəsini məhv etmiş və bir döyüş tankını əl qumbarası ilə partladaraq sıradan çıxarıb.

Qiyas Əhədov 1993-cü il dekabr ayının 26-da Xocavənd rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Ölümündən sonra şəhidin adı əbədiləşdirilmiş, Xanagah kənd tam orta məktəbinə Əhədov Qiyas İsaxan oğlunun adı verilib.



**VAHAB ƏSƏDOV**
**(1972 - 1994)**

***Əsədov Vahab Ayaz oğlu*** – 1972-ci ildə Lerik rayonunun Kirəvud kəndində anadan olub. 1980-ci ildə Kirəvud kənd səkkizillik məktəbinin birinci sinfinə qəbul olunub, 1988-ci ildə həmin məktəbi, 1990-cı ildə isə qonşu Boykəndil kənd orta məktəbini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb. Lakin Qarabağ savaşı başlandığından sovet ordu sıralarında hərbi xidmətini yarımçıq saxlayaraq vətənə qayıtmış, könüllü olaraq milli ordu sıralarına qoşulmuşdur.

Vahab Qarabağ cəbhəsinin müxtəlif bölgələrində, xüsusən də Ağdam, Ağdərə və Fizuli rayonları uğrunda gedən döyüşlərdə iştirak edərək xain düşmənə qarşı vuruşub.

Vahab Fizulinin Kərimbəyli kəndi və Ağdərənin Təzəkənd kəndi uğrunda gedən döyüşlərdə xüsusi fəallıq göstərərək fərqlənib.

Döyüş yolu bir ay iki gün çəkən Vahab Əsədov 22 may 1994-cü ildə Fizuli rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.



**SƏLİM CABBAROV**
**(1974 - 1993)**

***Cabbarov Səlim Qəyyum oğlu***– 1974-cü ildə Lerik rayonunun Kirəvud kəndində anadan olub. 1982-ci ildə Kirəvud kənd səkkizillik məktəbinin birinci sinfinə qəbul olunub, 1990-cı ildə həmin məktəbi, 1992-ci ildə isə qonşu Boykəndil kənd orta məktəbini bitirib.

1992-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə göndərilib. Cəbhə yoldaşlarının dediklərinə görə Cabbarov Səlim Qarabağ döyüşlərində əfsanəvi şücaətlər göstərib. Ağdərə və Ağdam rayonları uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbələr endirərək onların xeyli canlı qüvvəsini məhv edib. O, 30 oktyabr 1992-ci ildə Xanabad uğrunda gedən döyüşlər zamanı şəxsi igidlik göstərərək döyüş yoldaşlarını mühasirədən çıxarıb. Şelli, Xramord və Ağdamın Çuxurməhəllə kəndi uğrundakı döyüşlərdə də Səlim xüsusi fəallıq göstərib, düşmənin çox sayda canlı qüvvəsini məhv edib.

Vətənin qəhrəman oğlu 03 iyul 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi işğal altındakı ərazlərdə olduğundan onu götürmək mümkün olmayıb.

Hazırda Kirəvud kənd ümumi orta məktəbi Şəhid Cabbarov Səlim Qəyyum oğlunun adını daşıyır.



**SARXAN BƏŞİROV**
**(1973 - 1992)**

***Bəşirov Sarxan Balabəy oğlu*** – 1973-cü ildə Lerik rayonunun Sorusçay kəndində anadan olub. 1980-cı ildə Nuravud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

1991-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə göndərilmişdir.

Sərxanın döyüş yolu Fizuli cəbhəsindən keçmişdir. O, Fizuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərmişdir.

Döyüş yoldaşı Vahid Şəfiyev Sərxan haqqında belə deyir: *"Artilerya qurğularının, tankların, PDM-lərin, minaların, pulemyotların səsi Sərxan üçün adiləşmişdi. O, canlara dəyən dost, qanına vətənpərvərlik hopmuş fədai idi.*

Gənc kəşviyyatçı Sarxan Bəşirov 1992-ci ildə Fizuli rayonunun Diləğarda kəndi uğrunda gedən döyüşlərdə düşmən tankından atılan mərminin partlayışı nəticəsində ölümcül yaralanaraq qəhrəmancasına şəhid olur.

Nuravud kənd orta məktəbi Şəhid Bəşirov Sarxan Balabəy oğlunun adını daşıyır.



## SARVAN MƏRDİYEV
## (1973 - 1994)

***Mərdiyev Sarvan Güloğlan oğlu*** – 1973-cü ildə Lerik rayonunun Nuravud kəndində anadan olub. 1980-cı ildə Nuravud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

1991-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə göndərilmişdir. Yenicə formalaşmağa başlayan Milli ordu sıralarına qoşulan Sarvan əlinə silah alanda şəhidlərin müqəddəs ruhu naminə son damla qanına qədər döyüşəcəyinə and içir.

Döyüş yolu Fizuli cəbhəsindən başlayır Sarvanın. O, Fizuli rayonu uğrunda gedən döyüşlərdə iştirak etdirərək qəhrəmanlıqlar göstərir. İştirak etdiyi bütün döyüş əməliyyatlarında xüsusi fəallığı ilə seçilmiş, döyüş meydanında şəxsi igidliyi ilə fərqlənmişdir.

Vətənin qəhrəman oğlu 1994-cü ilin yanvar ayında Fizuli rayonu uğrunda gedən döyüşlərdə yaralı əsgər yoldaşını döyüş zonasından uzaqlaşdırarkən düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Sarvan Mərdiyev Nuravud kəndinin ilk şəhididir.



**NEMƏT MAŞİYEV**
**(1973 - 1992)**

***Maşiyev Nemət Mütəllim oğlu*** – 1973-cü ildə Lerik rayonunun Şinəband kəndində anadan olub. 1980-cı ildə Nuravud kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq sovet ordu sıralarına yola salınır. Lakin həmin vaxt artıq Qarabağda vəziyyət gərginləşmiş, erməni qəsbkarları havadarları ilə torpaqlarımızda insanlara qarşı olmazın vəhşiliklər törətməyə başlamışdı. Nemət də digər həmvətənlərimiz kimi doğma vətənə qayıdıb könüllü olaraq milli ordu sıralarına qoşulur və Qarabağa yollanır.

Nemət təcrübəli tağım komandiri kimi dəfələrlə cəbhə yoldaşlarını mühasirədən çıxararaq düşmənə sarsıdıcı zərbələr endirir. Döyüş taktikasını yaxşı mənimsədiyinə görə döyüş əməliyyatlarında xüsusi fəallıq göstərir.

Vətən yolunda canından keçməyə hazır olan Nemət 1992-ci ildə qızğın döyüşlərin birində düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Hal-hazırda Şinəband kənd orta məktəbi Şəhid Maşiyev Nemət Mütəllim oğlunun adını daşıyır.



## ZAHİR BƏBİROV
## (1974 - 1994)

***Bəbirov Zahir Bayraməli oğlu***– 1974-cü ildə Lerik rayonunun Nuravud kəndində anadan olub. 1981-ci ildə Nuravud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbini bitirdikdən sonra1992-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə göndərilir.

Döyüş yolu Fizuli cəbhəsindən keçən. Zahir Bəbirov Fizuli rayonu uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq nümayiş etdirərək döyüş yoldaşları ilə bərabər quduzlaşmış düşmənə sarsıdıcı zərbələr endirir.

Ürəyi vətən eşqiylə döyünürdü Zahirin. Nəyin bahasına olursa, olsun, xain düşmənin ayağını torpaqlarımızdan kəsməyə çalışırdı. Döyüş meydanına girəndə əsl qəhrəman kimi döyüşürdü. Açdığı sərrast atəşlərlə düşmənin olduğu yeri onun üçün cəhənnəmə çevirirdi.

Vətənin qəhrəman oğlu 26 yanvar 1994-cü ildə Şişqaya yüksəkliyi uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılmışdır.



## MÜŞFİQ CƏFƏROV
## (1974 - 1994)

***Cəfərov Müşfiq İlyas oğlu*** – 13 aprel 1974-cü ildə Lerik rayonunun Mondigah kəndində anadan olub. 1981-ci ildə Mondigah kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınır.

Müşfiqin döyüş yolu Laçın rayonundan başlanır. Sonra o, Fizuli və Kəlbəcər rayonları uğrunda gedən döyüşlərdə iştirak edir. O, bir əsgər kimi dəfələrlə düşmənə zərbələr endirərək torpaqlarımızın müdafiəsində öz döyüş məharətini göstərir.

1994-cü il yanvar ayının 26-da Kəlbəcərin müdafiəsi uğrunda gedən döyüşlər zamanı Müşfiq əlindəki qumbara ilə özünü yaxınlaşan düşmən BTR-in altına ataraq həm düşmən texnikasını və canlı qüvvəsini sıradan çıxarır, həm də özü qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**VAQİF FƏRZULLAYEV**
**(1967 – 1992)**

***Fərzullayev Vaqif Ulduz oğlu*** – Əslən Lerik rayonunun Rəzəvul kəndindən olan Vaqif 1967-ci ildə Sabirabad rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra Sabirabad rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır.

Vaqif hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır. Qarabağ savaşı başlananda Vaqif də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq döyüşə yollanır. Onun döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Torpaqlarımızın müdafiəsində göstərdiyi rəşadət və hünər komandirləri tərəfindən həmişə qiymətləndirilib. Ordu qüvvələrinin qeyri-bərabər olduğu bir vaxtda döyüşlərə atılaraq düşmənə qarşı mübarizə aparan yüzlərlə vətən övladı kimi Vaqif də vətənə olan borcunu şərəflə yerinə yetirməyə çalışıb, ölümdən çəkinmədən düşmənlərlə mübarizə aparıb.

Vaqif Fərzullayev 1994-cü ilin aprel ayında düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu rayona gətirilərək hörmət və ehtiramla dəfn olunur.



**ZAKİR FƏRZULLAYEV**
**(19?? – 1994)**

***Fərzullayev Zakir Ulduz oğlu***– Əslən Lerik rayonunun Rəzəvul kəndindən olan Zakir Sabirabad rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra Sabirabad rayon Hərbi komissarlığı tərəfindən hərbi xidmətə yola salınıb.

Qarabağ savaşı başlananda Vaqif də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq döyüşə yollanır. Onun döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. Zakir torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edərək igidliklər göstərir.

Zakir Fərzullayev Qarabağ uğrunda gedən döyüşlər zamanı misilsiz igidliklər göstərir, bir çox döyüş əməliyyatlarında iştirak edir, vətənə olan borcunu sədaqətlə yerinə yetirməyə çalışır.

O, 1994-cü ildə düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu rayona gətirilərək torpağa tapşırılır.



**SARVAN İBADOV**
**(1973 – 1992)**

***İbadov Sarvan Bayram oğlu*** – 1973-cü ildə Lerik rayonunun Tatonu kəndində anadan olmuşdur. 1979-cu ildə Qosmalian kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1989-cu ildə həmin məktəbin onuncu sinfini bitirib. Orta məktəbi bitirdikdən sonra Lənkaran musiqi məktəbinin xalq çalğı alətləri şöbəsinə daxil olur.

Məktəbi bitirdikdən sonra Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Qarabağ cəbhəsinə yola salınır. Döyüş yolu Laçın cəbhəsindən başlayıb.

Sarvan Qarabağ uğrunda gedən döyüşlər zamanı misilsiz igidliklər göstərir, bir çox döyüş əməliyyatlarında iştirak edib, vətənə olan borcunu sədaqətlə yerinə yetirməyə çalışmışdır. İştirak etdiyi döyüşlərdə düşmənin çoxlu canlı qüvvəsini və döyüş texnikasını sıradan çıxarmışdır.

Sarvanın son döyüş yeri Ağdam cəbhəsi olur. O, 1992-ci il iyul ayının 6-da Çuxurəhmədli kəndi uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**ZAHİD HƏSƏNOV**
**(1974-1994)**

***Həsənov Zahid Şahverdi oğlu*** – 10 oktyabr 1974-cü ildə Lerik rayonunun Brkandül kəndində anadan olub. 1981-ci ildə Bırkandül kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin doqquzuncu sinfini bitirib, təhsilinin yarım qalan hissəsini Vistən kənd orta məktəbində başa vurub.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılır, 07 iyul 1993-cü ildə Astara rayonunda yerləşən hərbi hissəyə, sonra isə Lənkəranda, Port-İliçdə yerləşən hərbi hissəyə göndərilir. Zahid bu hərbi hissələrdə təlim keçdikdən sonra həmin ilin noyabr ayında Qarabağ cəbhəsinə göndərilir. O, Şişqaya uğrundakı əməliyyatlarda iştirak edib və qəhrəmanlıqlar göstərir.

Zahid 1994-cü il yanvar ayının 5-də Ağcəbədiyə göndərilir və burda gedən döyüşlərdə iştirak edir. Son döyüş yeri Xocavənd cəbhəsi olub.

Zahid Həsənov 12 aprel 1994-cü ildə Xocavənd rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Brkandül kənd əsas məktəbi Həsənov Zahid Şahverdi oğlunun adını daşıyır.



## ELXAN FƏRƏCOV
## (1975 - 1994)

***Fərəcov Elxan Həsənağa oğlu*** – 11 yanvar 1975-ci ildə Lerik rayonunun Qışlaq kəndində anadan olub. 1982-ci ildə Zəriküməco kənd ümumi orta məktəbinin birinci sinfinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin doqquzuncu sinfini bitirib, daha sonra təhsilini Piran kənd orta məktəbində davam etdirərək başa vurmuşdur.

Orta məktəbi bitirdikdən sonra1993-cü il yanvar ayının 12-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinəyola salınır.

Elxanın döyüş yolu Kəlbəcər rayonundan başlayır. Sonra Elxan xidmətini Xanlar cəbhəsində davam etdirərək dəfələrlə düşmənə zərbələr endirib torpaqlarımızın müdafiəsində igidliklər göstərir.

Son döyüş yeri Murov cəbhəsi olub. 1994-cü ilin fevral ayında Murovun müdafiəsi uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

Şəhidin cənazəsi həmin ilin mart ayının 27-də doğulduğu Qışlaq kəndinə gətirilərək torpağa tapşırılır.



**ZƏFƏR MUSAYEV**
**(1974-1993)**

***Musayev Zəfər Muxtar oğlu*** – 1974-cü ildə Lerik rayonunun Davradibi kəndində anadan olub. Zəfər Musayev 1981-ci ildə Davradibi kənd ümumi orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Zəfər Musayev cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif bölgələrindən keçib. Fizuli rayonu, Şişqaya və Ağburun ətrafında gedən qanlı döyüşlərdə iştirak edərək misilsiz igidliklər göstərib, vətənə olan borcunu sədaqətlə yerinə yetirməyə çalışmışdır. Zəfərin son döyüş yeri Ağdam rayonu olub.

Zəfər Musayev 20 aprel 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu rayona gətirilərək tor-pağa tapşırılıb.



**RAUF FEYZİYEV**
**(1975 - 1996)**

***Feyziyev Rauf Bilal oğlu*** – 19 sentyabr 1975-ci ildə Lerik rayonunun Vistən kəndində anadan olub. 1982-ci ildə Vistən kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1992-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra1993-cü il oktyabrın 1-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinəyola salınır.

Raufun döyüş yolu Fizuli rayonunundan keçib. O, Fizuli cəbhəsində gedən döyüşlərdə iştirak edərək torpaqlarımızın müdafiəsində əsl qəhrəmanlıqlar göstərib.

Əsgər yoldaşları dara düşəndə canından keçməyə hazır olan Rauf Rəzəvul kəndinin şəhid oğlu Cavid Əzizov şəhid olarkən həyatını təhlükəyə ataraq onun cənazəsini düşmən əhatəsindən çıxara bilmişdir.

Son döyüş yeri Fizuli rayonunun Arxandil kəndi olur. 1996-cı il mart ayının 3-də Fizuli rayonunun Arxandil kəndinin müdafiəsi uğrunda gedən döyüşlər zamanı minaya düşərək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək torpağa tapşırılmışdır.



**AZƏR TƏHMƏZOV**
**(1972-1992)**

***Təhməzov Azər Şahrza oğlu*–** 24 aprel 1972-ci ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. 1979-cu ildə Pirasora kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1989-cu ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş sovet ordu sıralarına yola salınır. Azər sovet ordu sıralarından tərxis olunduqdan sonra vətənə qayıdır, könüllü olaraq yenicə yaranmağa başlayan Milli ordu sıralarına qoşulur.

Döyüş yolu Fizuli rayonundan başlayan Azər Fizulinin Çarmaz, Divanlılar və digər kəndlərin ətrafında gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərir. O, torpaqlarımızın qorunmasında dəfələrlə düşmən həmləsinin qarşısını alaraq öz döyüş bacarığı ilə seçilmişdir.

1992-ci ildə Fizuli uğrunda gedən döyüşlərin birində qəhrəmancasına şəhid olmuşdur.

Hal-hazırda Pirasora kənd orta məktəbi Təhməzov Azər Şahrza oğlunun adını daşıyır.



## İSMAYIL YAQUBOV
## (1973-1993)

***İsmayıl Ağamoğlan oğlu –*** 23 iyul 1973-cü ildə Lerik rayonunda anadan olub. 1979-cu ildə birinci sinfinə daxil olub, 1989-cü ildə orta məktəbi bitirib. Orta məktəbi bitirdikdən sonra peşə məktəbinə daxil olub, 1991-ci ildə oranı bitirmişdir.

İsmayıl Yaqubov Peşə məktəbini bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınır.

İsmayılın döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. O, Ağdərə, Xocavənd, Tərtər və digər rayonlar uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib.

İsmayılın döyüş yoldaşı olmuş Lerik rayon Cəngəmiran kənd sakini Ceyhun Qafarov onun qorxmaz, cəsur, döyüş bacarığı ilə ad çıxarmış, vətən torpağı uğrunda döyüşməyi bacaran bir kəşviyyatçı olduğunu qeyd edir.

İsmayıl Yaqubov 29 dekabr 1993-cü ildə Şişqaya uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi Lerik rayonuna gətirilərək dəfn olunub.



**SULDUZ ZAHİRƏLİYEV**
**(1974-1993)**

***Zahirəliyev Sulduz Əliş oğlu-*** 1974-cü ildə Lerik rayonunun Davidonu kəndində anadan olub. 1979-cu ildə Davidonu kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1989-cu ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Sulduzun döyüş yolu 1992-ci ilin may ayında Ağdam rayonunun Canyataq kəndindən başlayır. Sonralar Sulduz Mehmanə, Fərrux, Gülyataq, Çaldıran, Sırxavənd, Qalayçılar və digər kəndlərin ətrafında gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərir.

O, torpaqlarımızın müdafiəsi zamanı dəfələrlə düşmən həmləsinin qarşısını alaraq öz döyüş bacarığı ilə seçilir.

Sulduz Zahirəliyev 1993-cü il oktyabr ayının 10-da Xındırıstan kəndi uğrunda gedən döyüşlərdə düşmənin çoxlu canlı qüvvəsini sıradan çıxarmış, qeyri bərabər döyüşdə özü də qəhrəmancasına şəhid olmuşdur.



**ARİF NURİYEV**
**(19?? - 1994)**

***Nuriyev Arif Ələsgər oğlu-*** Lerik rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra Qorki Ali Hərbi İnşaat Mühəndisləri məktəbinə daxil olur. Qarabağ savaşı başlandığından təhsilini yarımçıq qoyaraq vətənə qayıdır, burada Ali Umumqoşun Komandirləri məktəbinin 4-cü kursuna qəbul edilir və buranı bitirərək leytenant hərbi rütbəsi alır.

Arif məktəbi bitirdikdən sonra Milli ordu sıralarında xidmətə başlayır və komendant tağımına rəhbərlik edir. 1993-cü ilin mart ayında Geranboy ətrafında gedən döyüşlərdə şəxsi igidliklər göstərərək peşəkar zabit kimi özünü göstərir.

Sonralar Arifin rəhbərlik etdiyi tağım Ağdamın Güllücə və İlxıçılar kəndi uğrunda gedən döyüşlərdə düşmənə ağır zərbələr endirir.

1994-cü ilin yanvar ayının 8-də İlxıçılar kəndi uğrunda gedən göyüşlərdə Baş leytenant Arif Nuriyev düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.

Polkovnik E. Qəniyevin imzaladığı məlumatda deyilir:“*Arif Nuriyev özünü yüksək qabiliyyətli, bacarıqlı, əsgərlərin hörmətini qazanan zabit kimi göstərirdi. O, torpaqlarımız uğrunda döyüşlərdə 20-ə yaxın düşməni məhv etmiş və hərbi texnika ələ keçirmişdir*.”

Arifin son sözü “*ancaq irəli*” olmuşdur.



## ƏLİYEV NADİR

***Əliyev Nadir Möhkəm oğlu*** – Lerik rayonununda anadan olub. 1986-cı ildə C. Naxçıvanski adına Ali Hərbi Litseyi bitirib. Litseyi bitirdikdən sonra Blaqoveşşensk Umumqoşun Ali Hərbi Komandirləri Məktəbinə daxil olub, Daşkənddə təhsilini davam etdirir.

1992-ci ilin may ayında Bakı Umumqoşun Ali Hərbi Komandirləri Məktəbinə gəlir, üçüncü kursu bitirdikdən sonra ona vaxtından əvvəl leytenant hərbi rütbəsi verilir və məktəbdə tağım komandiri vəzifəsində saxlanılır.

Cəbhədə vəziyyət ağırlaşanda Nadir Əliyev bölük komandiri kimi Ağdamın Yusifcanlı, Mərizli, Novruzlu və digər məntəqələrinə gedərək döyüşlərdə iştirak edir.

Daha sonra Müdafiə Nazirliyinin əmrinə əsasən Naxçıvanda yerləşən hərbi briqadanın sərəncamına göndərilir, yaxşı xidmətlərinə görə baş leytenant rütbəsi alaraq bölük komandiri təyin edilir.

Nadir yüksək intizamı və hərbi qabliyyəti ilə fərqləndiyinə görə xidmət etdiyi taborun qərərgah rəisi vəzifəsinə təyin edilir. Nadir Əliyevin rəhbərlik etdiyi tabor Ordubad rayonunda yerləşən Soyuqdağ yüksəkliyini düşməndən qoruyurdu.

Qorxmazlığı və döyüş bacarığı ilə seçilən Nadir burada xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur.



**XALİQ QƏMBƏROV**
**(1975-1993)**

***Qəmbərov Xaliq Şəxsin oğlu***– 04 yanvar 1975-ci ildə Lerik rayonunun Barzavu kəndində anadan olub. 1982-ci ildə Barzavu kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Xaliq hələ orta məktəbdə oxuyarkən müəllimlərinin hörmətini qazanmış, əlaçı şagird kimi ad çıxarmışdır. Onun arzusu ali məktəbə qəbul olmaq, riyaziyyat elminin sirlərini öyrənmək və öyrətmək idi. Lakin Qarabağda başlanan müharibə buna imkan vermədi.

Xaliq orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Xaliqin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Son döyüş yeri Ağdərə cəbhəsi olur. O, Ağdərə rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərir.

Xaliq Qəmbərov 20 dekabr 1993-cü ildə Ağdərə döyüşlərində mina partlayışı nəticəsində qəhrəmancasına şəhid olur.

Hal-hazırda Barzavu kənd orta məktəbi Qəmbərov Xaliq Şəxsin oğlunun adını daşıyır.



## QORXMAZ RƏHİMOV
## (1977-1998)

***Qorxmaz Gülhəsən oğlu*** – 1977-ci il sentyabr ayının 13-də Lerik rayonunun Cəngəmiran kəndində anadan olmuşdur. 1984-cü ildə Cəngəmiran kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1994-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 1995-ci ilin oktyabr ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınır.

Qorxmaz hərbi xidmətə 888 N-li hərbi hissədə başlamış, nümunəvi davranışları ilə komandirlərinin hörmətini qazanmışdır.

1997-ci ildə Gədəbəy rayonunda yerləşən hərbi hissəyə göndərilmişdir.

Sərhədlərimizin keşiyində ayıq-sayıq dayanan bu gənc qəhrəman 1998-ci il mart ayının 19-da Gədəbəy rayonunda xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gəlir və şəhidlik zirvəsinə ucalır.

Şəhidin cənazəsi Lerik rayonunun Cəngəmiran kəndinə gətirilərək Xəlifə Zəkəriyyə qəbiristanlığının Şəhidlər kompleksində dəfn edilir.



## ƏNVƏR NƏCİYEV
## (1974-1994)

***Nəciyev Ənvər Xosaxan oğlu***– 1974-cü ildə Lerik rayonunun Bırkandül kəndində anadan olub. 1980-ci ildə Bırkandül kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbin doqquzuncu sinfini bitirib, təhsilinin yarım qalan hissəsini Vistən kənd orta məktəbində başa vurmuşdur.

Orta məktəbi bitirdikdən sonra Altay vilayətinə gedib, orada İnşaat İnsitutuna daxil olur.

Qarabağ savaşı başlandığından təhsilini yarımçıq qoyaraq vətənə qayıdır və Milli ordu sıralarına qoşulur.

Ənvər Ağdam uğrunda gedən döyüşlərdə iştirak edir və qəhrəmanlıqlar göstərir. Dəfələrlə düşmənə qarşı təşkil olunmuş əməliyyatlarda iştirak edərək döyüş bacarığı ilə fərqlənir.

Ənvər Nəciyev 1994-cü ilin aprel ayının sonlarında Tərtər rayonunun Talış kəndi uğrunda gedən döyüşlər zamanı düşmən tərəfindən vurulmuş komandirini döyüş meydanından çıxarmaq istərkən özü də düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Onun cənazəsi əvvəlcə Ağdam rayonunun Xındırıstan kəndinə, 06 may 1994-cü ildə isə doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Ölümündən sonra şəhidin adı əbədiləşdirilir, Vistən kənd orta məktəbinə Nəciyev Ənvər Xosaxan oğlunun adı verilir.



**MÜBARİZ HƏSƏNOV**
**(1969 – 1994)**

***Həsənov Mübariz Ağakişi oğlu*** – 20 sentyabr 1969-cu ildə Lerik rayonunun Tikəband kəndində anadan olub. Orta məktəbi Lənkaran rayonunun Şilavar kəndində bitirib, 113 nömrəli texniki-peşə məktəbində oxuyub.

Peşə məktəbini bitirdikdən sonra hərbi xidmətə çağrılaraq keçmiş sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini Almaniya Respublikasında başa vurduqdan sonra vətənə qayıdır.

Mübariz vətənə qayıdanda artıq Qarabağda mənfur qonşularımız qarışıqlıq yaratmağa başlamışdı. Mübariz də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq milli ordu sıralarına qoşulur.

Mübarizin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. O, Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək şəxsi igidlik və qəhrəmanlıqlar göstərir.

Mübariz Həsənov 08 yanvar 1994-cü ildə Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən qanlı döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi Lənkarana gətirilərək Böyük Bazar qəbiristanlığında dəfn olunur.



**ƏFSƏR TALIBOV**
**(1974 – 1994)**

***Talıbov Əfsər Mədi oğlu –*** 1974-cü ildə Lerik rayonunun Şinəband kəndində anadan olub. 1981-ci ildə birinci sinfinə daxil olub, 1991-ci ildə orta məktəbi bitirib.

1992-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Əifsərin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Tərtər rayonunun Çaylı kəndində düşmənə qarşı mübarizədə iştirak edərək döyüş bacarığı ilə fərqlənir.

Sonra 25 nəfər əsgər heyyəti ilə Tərtərdən Ağdərə rayonuna göndərilir, burada da bir çox döyüş əməliyyatlarında iştirak edir.

Əfsər Talıbov 1994-cü ilin yanvar ayında Ağdərə rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Onun cənazəsi düşmənin zəpt etdiyi ərzilərdə qaldığından götürmək mümkün olmur.



## YAŞAR ALXASOV
## (1974 - 1995)

***Alxasov Yaşar Abutalıb oğlu*** – 25 mart 1974-cü ildə Bakı şəhəri Suraxanı rayonunda anadan olub. 1979-cu ildə ailəsi ilə birlikdə Lerik rayonunun Zəriküməco kəndinə köçür. 1981-ci ildə Zəriküməco kənd ümumi orta məktəbinin birinci sinfinə qəbul olunub, 1990-cı ildə həmin məktəbin doqquzuncu sinfini bitirmiş, daha sonra təhsilini Piran kənd orta məktəbində davam etdirərək başa vurmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1992-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınır.

Yaşarın döyüş yolu Fizuli rayonunun Bəhmənli, Daşburun, Balabəhmənli kəndlərindən keçir. Yaşar Fizuli cəbhəsində gedən döyüşlərdə iştirak edərək dəfələrlə düşmənə zərbələr endirir, torpaqlarımızın müdafiəsində əsl qəhrəmanlıq nümayiş etdirir.

Son döyüş yeri Fizuli rayonunun Horadiz qəsəbəsi olur. 1995-ci ilin oktyabr ayının 22-də Horadiz qəsəbəsinin müdafiəsi uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək torpağa tapşırılır.



## ƏZİZ HÜSEYNOV
## (1976-1994)

***Hüseynov Əziz Ənsar oğlu*** **–** 1976-cı ildə Lerik rayonunun Almu kəndində anadan olub. Sonradan ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçdüyündən burada yaşamalı olur. 1983-cü ildə Sumqayıt məktəblərinin birində birinci sinfinə daxil olur, 1993-cü ildə burada onuncu sinfi bitirir.

Orta məktəbi bitirdikdən sonra Sumqayıt Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Əzizin döyüş yolu 1993-cü ildə başlayaraq Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. O, torpaqlarımız uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib.

Qorxmazlığı və döyüş bacarığı ilə ad çıxarmış Əziz hər kəsin sevimlisinə çevrilmişdir. Ona verilən bütün döyüş tapşırıqlarını mətanətlə yerinə yetirməyə çalışmışdır.

Əziz Hüseynov 1994-cü ildə Tərtər rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Onun cənazəsi Sumqayıta gətirilərək şəhidlər xiyabanında dəfn edilir.



**BALAŞ DOVLƏTOV**
**(1973 –1994)**

***Dövlətov Balaş Atakişi oğlu*** – 1973-cü ildə Lerik rayonunun Vılıq kəndində anadan olub. Orta təhsilini Bakı şəhərində yerləşən 117 saylı məktəbdə alıb. Belə ki, Dövlətov Balaş 1979-cu ildə 117 saylı məktəbin birinci sinfinə daxil olub, 1989-cu ildə həmin məktəbin onuncu sinfini bitirmişdir.

Orta məktəbi bitirdikdən sonra həqiqi hərbi xidmətə çağırılaraq Qarabağ cəbhəsinə yola salınır. Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Torpaqlarımızın müdafiəsində göstərdiyi rəşadət və hünər komandirləri tərəfindən həmişə qiymətləndirilmişdir. Balaş Qarabağ uğrunda gedən döyüşlər zamanı misilsiz igidliklər göstərmiş, bir çox döyüş əməliyyatlarında iştirak etmiş, vətənə olan borcunu sədaqətlə yerinə yetirməyə çalışmışdır.

Balaşın son döyüş yeri Tərtər cəbhəsi olur. O, 1994-cü ilin may ayında Tərtər rayonu uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək torpağa tapşırılır

Vılıq kənd ümumi orta məktəbi Dövlətov Balaş Atakişi oğlunun adını daşıyır.



**BƏXTİYAR BAYRAMOV**
**(1975-1994)**

***Bayramov Bəxtiyar Əlifağa oğlu***– 24 sentyabr 1975-ci ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. 1982-ci ildə Pirasora kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lənkaran şəhərində texniki-peşə məktəbinə daxil olur. 1993-cü ildə cəbhəyə getmək üçün Lerik rayon Hərbi komissarlığına müraciət edir. Həmin ilin oktyabr ayının 8-də cəbhəyə göndərilir.

Bəxtiyarın döyüş yolu Ağdərə rayonundan başlayır. O, Ağdərə rayonu uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək şəxsi igidliklər göstərir.

Bəxtiyar Bayramov 18 yanvar 1994-cü ildə Ağdərə rayonu uğrunda gedən döyüşlərin birində qəhrəmancasına şəhid olur.

Ölümündən yeddi gün əvvəl yazdığı məktubdan: *“Əziz valideynlərim! Çətin bir döyüşə hazırlaşırıq. Xain düşməni torpaqlarımızdan qovmaq vaxtı çatıb. Bu döyüşdə şəhid olsam kədərlənməyin. Sevinin ki, oğlunuz vətən yolunda əbədiyyətə qovuşdu. “*



## ƏLƏKBƏR HÜSEYNOV (1973-1995)

***Hüseynov Ələkbər Orucəli oğlu***– 24 dekabr 1973-cü ildə Lerik rayonunun Osnağakücə kəndin-dəanadan olub. 1980-ci ildə Lüləkəran kənd əsas məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbi bitirib.

Orta məktəbi bitirdikdən sonra Bakı Neft Kimya Texnikumuna daxil olub, 1991-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 1992-ci ildə Bakı şəhəri Sabunçu rayonu hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Ələkbər Hüseynovun döyüş yolu Murov cəbhəsindən keçib. Belə ki, o bir çox uğurlu döyüş əməliyyatlarında iştirak edərək şəxsi igidliyi və döyüş bacarığı ilə seçilir. Ələkbər ən qaynar döyüş nöqtələrinə girməkdən çəkinməmiş, düşmənə sarsıdıcı zərbələr endirərək onların çox sayda canlı qüvvəsini məhv etmişdir.

Ələkbər Hüseynov 20 noyabr 1995-ci ildə Murovda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək torpağa tapşırılır



**VALEH RƏHİMOV**
**(1978-2000)**

***Rəhimov Valeh Həsrət oğlu*** – 01 sentyabr 1978-ci ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. 1985-ci ildə Pirasora kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1995-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınır.

Hərbi xidmətə Murov cəbhəsində başlayır. Valeh xidməti müddətində əsgəri nizam-intizamıyla fərqlənmiş, dəfələrlə komandirlərinin təşəkkürlərini qazanmışdır. O, sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanaraq düşmən həmləsinin qarşısını alaraq öz döyüş bacarığı ilə seçilmişdir.

Valeh Rəhimov 12 mart 2000-ci ildə Murov cəbhəsində düşmənin növbəti hiyləsinin qarşısını alarkən qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**FAİQ MƏMMƏDOV**
**(1975 – 1994)**

***Məmmədov Faiq Bahaddin oğlu*** **-** 1975-ci ildə Lerik rayonunun Qələsər kəndində anadan olub. 1982-ci ildəbirinci sinfinə daxil olmuş, 1992-ci ildə orta məktəbi bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Faiqin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Tərtər rayonunun Qırmızıkən yaşayış məntəqəsinin düşməndən geri alınmasında misilsiz xidmətləri olur.

Faiq düşmənə qarşı mübarizədə döyüş bacarığı və qorxmazlığı ilə hər zaman fərqlənib.

Faiq Məmmədov 1994-cü il may ayının 1-də Tərtər rayonunun Qırmızıkən yaşayış məntəqəsi uğrunda gedən döyüşlərdə ağır yaralanaraq Bakı şəhərinə gətirilir, cərrahiyyə əməliyyatı olunsa da onun həyatını xilas etmək mümkün olmur. O, həmin ilin may ayının 7-də əbədiyyətə qovuşaraq şəhidlik zirvəsinə ucalır.

Qosmalian kənd orta məktəbi Məmmədov Faiq Bahaddin oğlunun adını daşıyır.



## İLKİN ƏLƏKBƏROV
## (1979-2000)

***Ələkbərov İlkin Tarqulu oğlu*** – 04 iyun 1979-cu ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. 1985-ci ildə Pirasora kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1996-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Hərbi xidmətə Fizuli cəbhəsində başlanır. İlkin xidməti müddətində özünün nizam-intizamıyla seçilmiş, komandirlərinin hörmətini qazanmış, vətənin təhlükəsizliyini hər şeydən üstün tutmuşdur.

O, sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanaraq dəfələrlə düşmən həmləsinin qarşısını alaraq öz döyüş bacarığını nümayiş etdirmişdir.

İlkin Ələkbərov 26 mart 2000-ci ildə Fizuli rayonunun Alxanlı kəndində düşmənin növbəti hiyləsinin qarşısını alarkən qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi yaşadığı kəndə gətirilərək dəfn olunur.



**FƏDAİL FƏTULLAYEV**
**(1979 - 1999)**

***Fətullayev Fədail Əzizağa oğlu*** – 1979-cu ildə Lerik rayonunun Nuravud kəndində anadan olub. 1986-cı ildə Nuravud kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1997-ci ildə həmin məktəbin on birinci sinfini bitirib.

Orta məktəbini bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılır. Fədail 1998-ci ilin yanvar ayında Milli ordu sıralarına yola salınır.

Hərbi xidmətə Daşkəsən rayonunda yerləşən hərbi hissədə başlayan Fədail xidməti müddətində özünü nizam-intizamlı əsgər kimi apararaq komandirlərinin hörmətini qazanır.

Vətənin keşiyində ayıq-sayıq dayanan gənc qəhrəman 1999-cu ilin mart ayınında Murovdağ silsiləsində düşmənlə üzbəüz mövqelərdə düşmən hücumunun və təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## ŞAİQ AĞAYEV
## (1978-1998)

***AğayevŞaiq Sərhad oğlu –*** 1978-ci il aprel ayının 17-də Lerik rayonunun Noda kəndində anadan olub. 1985-ci ildə Noda kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1993-cü ildə həmin məktəbin doqquzuncu sinifini bitirib.

1996-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Milli ordu sıralarına yola salınır. Şaiq Güzdəkdə yerləşən hərbi hissədə hərbi xidmətə başlayır.

1998-ci ildə Haramı düzündəki ön mövqelərimizə göndərilir və vətənimizin sayıq keşikçisinə çevrilir. Xidməti müddətində düşmən təxribatının qarşısının alınmasında xüsusu fəallıq nümayiş etdirir.

1998-ci il 4 fevral tarixində igid döyüşçümüz xain erməni gülləsinə tuş gələrək Vətən uğrunda şəhid olur.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Noda kənd mədəniyyət evi Şaiq Ağayevin adını daşıyır. Mədəniyyət evinin girişində şəhidin xatirə lövhəsi asılıb.



## ƏBÜLFƏZ MƏMMƏDOV
## (1979 – 1999)

***Məmmədov Əbülfəz Ağaxan oğlu*** – 1979-cu ildə Lerik rayonunun Livədirqə kəndində anadan olub. 1986-cı ildə Livədirqə kənd səkkizillik məktəbin birinci sinfinə qəbul olunub, 1994-cü ildəhəmin məktəbi bitirib.

Orta təhsilini tamamlamaqdan ötrü Murya kənd orta məktəbinə getmiş, 1996-cı ildə Murya kənd orta məktəbində onuncu sinfi bitirmışdir.

1998-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

01 sentyabr 1999-cu ildə vətənin qəhrəman oğul Məmmədov Əbülfəz xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək şəhid olur.

Lerik rayon İcra hakimiyyətinin başçısının 04 yanvar 2001-ci il 02 saylı sərancamı ilə Livədirqə kənd səkkizillik məktəbinə şəhid Məmmədov Əbülfəz Ağaxan oğlunun adı verilir. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## ŞAHLAR RÜSTƏMOV

***Rüstəmov Şahlar Xanoğlan oğlu***– Lerik rayonunun Buzeyir kəndində anadan olub. Şahlar Rüstəmov Buzeyir kənd orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Şahların döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. O, Ağdərə rayonu uğrunda gedən döyüşlərdə şücaətlər göstərmiş, qəhrəman döyüşçü kimi hamının hörmətini qazanmışdır.

Şahların son döyüş yeri Ağdam rayonu olmuşdur. O, Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən döyüşlərdə düşmənin çoxlu canlı qüvvəsini sıradan çıxarmış, qeyri bərabər döyüşdə özü də qəhrəmancasına şəhid olaraq əbədiyyətə qovuşmuşdur.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

Ölümündən sonra adı əbədiləşdirilərək təhsil aldığı Büzeyir natamam orta məktəbinə onun adı verilir.



**NAMİQ KİŞİYEV**

***Kişiyev Namiq Qənbər oğlu-*** Lerik rayonunun Şinəband kəndində anadan olub. Namiq Qənbərov Şinəband kənd orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır. Hərbi xidmətini Ukrayna Respublikasında başa vuran Namiq Vətənə qayıdır. Bu zaman artıq Qarabağ savaşı başlanmışdı. Namiq də digər vətən oğulları kimi könüllü olaraq Milli ordu sıralarına qoşulur.

1992-ci ildə Fizuli rayonunda rabitəçilər bölüyündə xidmətə başlayan Namiq Fizuli rayonunun Qacar kəndi uğrunda gedən döyüşlərdə və Kövşad kəndinin müdafiəsində fəal iştirak edir. Ağdərə rayonunun Muğanlı kəndinin azad edilməsi uğrunda gedən döyüşlərdə şəxsi igidlik və rəşadət göstərir.

Döyüşlərin birində düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur.



## CAVİD ƏZİZOV

***Əzizov Cavid Təslim oğlu –*** Lerik rayonunun Rəzəvul kəndində anadan olub. Cavid Əzizov Nüvədi kənd orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Cavidin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Fizuli rayonu uğrunda gedən döyüşlərdə şücaətlər göstərir, qəhrəman döyüşçü kimi hamının hörmətini qazanır.

Cavidin son döyüş yeri də Fizuli rayonu olur. O, Fizuli rayonunda yerləşən yüksəkliklərin ələ keçirilməsi uğrunda gedən döyüşlərdə düşmənin çoxlu canlı qüvvəsini sıradan çıxarıb, son damla qanına qədər döyüşərək qeyri bərabər döyüşdə özü də qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## CAMAL ŞAHIYEV

***Şahiyev Camal Xanış oğlu*** – Lerik rayonunda anadan olub. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş sovet ordu sıralarına yola salınıb. Hərbi xidmətini Baltikyanı Respublikalardan birində minaaxtaranlar bölüyündə başa vurub.

Camal vətənə qayıtdıqdan sonra ailə həyatı qurub təsərrüfat işləri ilə məşğul olur. Qarabağ savaşı başlananda Camal da digər qeyrətli vətən oğulları kimi könüllü olaraq Milli ordu sıralarına qoşulur.

O, Ağdam rayonunun Güllücə kəndi uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərir.

Camalın son döyüş yeri Fizuli rayonunun Horadiz qəsəbəsi olur. Horadiz qəsəbəsi uğrunda gedən döyüşlərdə düşmən gülləsinə tuş gələrək ağır yaralanır. Camal Bakıya gətirilsə də həkimlər onun həyatını xilas edə bilmir, vətənin qəhrəman oğlu əbədi olaraq gözlərini yumaraq şəhidlik zirvəsinə ucalır. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## TEYMUR MƏHƏRRƏMOV

***Teymur Xanmirzə oğlu –*** Lerik rayonunun Şonayçola kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Teymurun döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. O, vətən torpaqları uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib.

Qorxmaz, cəsur, döyüş bacarığı ilə ad çıxarmış, vətən torpağı uğrunda canından keçməyə hazır olan Teymur son gülləsinə qədər döyüşməyi qarşısına məqsəd qoyub düşmənə qarşı döyüşə atılmışdır. Döyüşlərin birində kapitan Məhərrəm Seyidovun rəhbərlik etdiyi 8 nəfərdən ibarət dəstə mühasirəyə düşür, təslim olmayıb sonuna qədər döyüşürlər. Bu döyüçdə düşmənin 122 nəfər canlı qüvvəsinə məhv edərək özləri də qəhrəmancasına şəhid olurlar.

Teymurun atası Xanmirzə kişinin dediklərini sizə təqdim etməyi özümüzə borc bilirik: - *"Teymur indi tək mənim oğlum deyil, bütün el-obanın övladıdır, şəhidlik adı qazanmış Azərbaycan əsgəridir. Mən şəhid oğlumla fəxr edirəm. Çünki başım ucalıb".*



## AZƏR MİRZƏYEV

***Mirzəyev Azər Həsən oğlu -*** Lerik rayonunun Şingədulan kəndində anadan olub. Şingədulan qəsəbə orta məktəbini bitirib. Orta məktəbi bitirdikdən sonra Lənkaran şəhərində yerləşən sürücülük məktəbinə daxil olur. Bu məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınır.

Azərin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. O, Beyləqan, Fizuli, Xocavənd və digər rayonlar uğrunda gedən qanlı döyüşlərdə iştirak etmiş, qorxmaz və cəsur bir əsgər kimi ad çıxarmışdır.

Azər Mirzəyev torpaqlarımız uğrunda gedən döyüşlərin birində qəhrəmancasına şəhid olub.

Onun cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**MİKAYIL QASIMOV**
**(19?? – 1994)**

***Qasımov Mikayil Dadi oğlu*** - Lerik rayonunun Bibyanı kəndində anadan olub. Sonradan ailəsi ilə birlikdə Sumqayıt şəhərinə köçdüyündən burada yaşayır. Sumqayıt məktəblərinin birində birinci sinfinə daxil olub və burada onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınır.

Hərbi xidmətini Sankt-Peterburqda başa vurur. Qarabağ savaşı başlananda Mikayıl da digər qeyrətli vətən oğulları kimi könüllü olaraq milli ordu sıralarına qoşulur.

Mikayılın döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. O, Fizuli, Cəbrayıl və digər rayonlar uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərir.

Mikayıl Qasımov 1994-cü ildə torpaqlarımız uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Onun cənazəsi Lerik rayonunun Bibyanı kəndinə gətirilərək Seyid Rəsul qəbiristanlığında torpağa tapşırılır.

Bibyanı kənd natamam orta məktəbi Qasımov Mikayıl Dadi oğlunun adını daşıyır.



## HACIYEV NAMİQ

***Hacıyev Namiq Talıb oğlu*** – Lerik rayonunun Tikəband kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb. Hərbi xidmətini Sverdlovskdə Daxili Qoşunların tərkibində başa vurub.

Hərbi xidmət zamanı təcrübə qazanmış Namiq Qarabağ savaşı başlananda könüllü olaraq milli ordu sıralarına qoşulur.

Namiqin döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. O, Ağdərə, Tərtər, Ağdam və digər rayonlar uğrunda gedən döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib.

Namiq qazandığı döyüş təcrübəsi sayəsində xain düşmənə sarsıdıcı zərbələr endirərək sərrast atəşləri ilə onların çox sayda canlı qüvvəsini məhv edir.

Namiq Hacıyev Ağdərə uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Onun cənazəsi Tikəband kəndinə gətirilərək torpağa tapşırılır.

Tikəband kənd orta məktəbi Hacıyev Namiq Talıb oğlunun adını daşıyır.



## İLDIRIM NURİYEV

***Nuriyev İldırım Xanəli oğlu***- Lerik rayonunun Divağac kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınıb.

İldırımın döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçib. İldırım Fizuli rayonunda gedən döyüşlərdə iştirak edərək igidliklər göstərib. Torpaqlarımızın müdafiəsində göstərdiyi rəşadət və hünər komandirləri tərəfindən həmişə qiymətləndirilib.

Ordu qüvvələrinin qeyri-bərabər olduğu bir vaxtda döyüşlərə atılaraq düşmənə qarşı mübarizə aparan yüzlərlə vətən övladı kimi İldırım də vətənə olan borcunu ödəməyə çalışmış, ölümdən çəkinmədən döyüşmüşdür.

İldırım Nuriyev Fizuli rayonu uğrunda gedən döyüşlər zamanı misilsiz igidliklər göstərib, mərmi partlayışı nəticəsində bir neçə yerindən yaralanaraq Fizuli şəhər xəstəxanasına gətirilib. Lakin o, çoxlu qan itirdiyindən həyatını xilas etmək mümkün olmur.

Beləliklə, İldırım Nuriyev gözlərini əbədi yumaraq həyatla vidalaşır. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək dəfn olunur.



## ETİBAR BƏŞİROV

***Bəşirov Etibar Qubad oğlu –*** Lerik rayonunun Hüseynabad kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Qarabağ cəbhəsinə yola salınır.

Etibarın döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərindən keçir. Etibar torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edərək igidliklər göstərir. Torpaqlarımızın müdafiəsində göstərdiyi rəşadət və hünər komandirləri tərəfindən həmişə qiymətləndirilir, ölümdən çəkinmədən düşmənə qarşı mərdliklə mübarizə aparır.

Etibar Bəşirov Qarabağ uğrunda gedən döyüşlər zamanı misilsiz şücaətlər göstərmiş, bir çox döyüş əməliyyatlarında iştirak etmiş, vətənə olan borcunu sədaqətlə yerinə yetirməyə çalışmışdır.

Etibar Bəşirov döyüşlərin birində düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**ELŞƏN QASIMOV**
**(1975-1994)**

***Qasımov Elşən Natiq oğlu*** – 15 iyun 1975-ci ildə Lerik qəsəbəsində anadan olub. 1981-ci ildə Bakı şəhərində yerləşən rusdilli məktəblərin birində birinci sinfinə daxil olub, 1991-cı ildə həmin məktəbin onuncu sinfini bitirib. Elşən məkdəbdə oxumaqla yanaşı, həm də karate idman növü ilə də məşğul olur, bir çox yarışlarda iştirak edərək fəxri fərman və diplomlarla təltif edilir

Orta məktəbi bitirdikdən sonra 1993-cü ildə Hərbi komissarlıq tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınır.

Elşən Qasımovun döyüş yolu Ağdam cəbhəsindən keçib. O, Ağdam rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək böyük hünər və rəşadət göstərmiş, döyüş yoldaşları ilə bərabər dəfələrlə düşmən həmlələrinin qarşısını alaraq səxsi igidliklər nümayiş etdirmişdir.

Elşən Qasımov 31 iyun 1994-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlər zamanı düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu rayona gətirilərək torpağa tapşırılır.

Lerik rayonundakı baxçalardan biri və rayonun keçmiş Xaqani küçəsi Elşən Qasımovun adını daşıyır.



## ƏFLATUN NOVRUZOV
## (1976-1996)

***Novruzov Əflatun Ulduzxan oğlu*** **-** 1976-cı ildə Lerik qəsəbəsində anadan olub. 1983-cü ildə Lerik qəsəbə natamam orta məktəbinin birinci sinfinə daxil olub, 1991-cı ildə həmin məktəbin səkkizinci sinfini bitirib. 1991-93-cü illərdə Lerik qəsəbə 1 saylı məktəbdə orta təhsilini başa vurub.

Orta məktəbi bitirdikdən sonra 1994-cü ilin aprel ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Əflatun Novruzov Milli ordu sıralarına yola salınır. Xidmətinin ilk üç ayını Badamdar qəsəbəsində yerləşən hərbi hissədə başa vurduqdan sonra Fizuli rayonuna göndərilib.

Fizuli rayonunda xidmətə başlayan Əflatun sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanmış, dəfələrlə düşmən həmlələrinin qarşısını alaraq igidliklər göstərmişdir.

Əflatun Novruzov 02 dekabr 1996-cı ildə Fizuli rayonunun Alıxanlı kəndində yerləşən Haramı düzündə xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. Şəhidin cənazəsi doğulduğu rayona gətirilərək torpağa tapşırılıb.

Lerikin mərkəzi küçələrindən biri Novruzov Əflatun Ulduzxan oğlunun adını daşıyır.



## ELÇİN MİRİŞOV
## (1976-1994)

***Mirişov Elçin Vaqif oğlu*** – 13 fevral 1976-cı ildə Lerik rayonunun Davidonu kəndində anadan olub. 1983-cü ildə Davidonu kənd əsas məktəbinin birinci sinfinə daxil olub, 1993-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra əsgərlik yaşının tamam olmasına baxmayaraq vaxtından əvvəl Lerik rayon Hərbi komissarlığına gedərək cəbhəyə getmək üçün müraciət etmiş, komissarlıq bu vətənpərvər gəncin istəyini nəzərə alaraq onu Milli ordu sıralarına yola salmışdır.

Elçin Mirişov Pirəkəşküldə hərbi təlim keçdikdən sonra Geranboy-Tərtər cəbhəsinə göndərilir. Hərbi hissədə təlimlər zamanı sərrast atıcılığı ilə komandirlərin diqqətini cəlb edir və snayper silahı ona etibar edilir.

Qrxmazlığı və döyüş bacarığı ilə seçilən Elçin ən qaynar döyüş nöqtələrində düşmənə sarsıdıcı zərbələr endirərək onların çox sayda canlı qüvvəsini məhv edir.

Elçin Mirişov 08 dekabr 1997-ci ildə xidməti müddətinin bitməsinə bir ay qalmış düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək şərəflə dəfn olunur.



**MUSTAFA QULİYEV**
**(1977 – 1996)**

***Quliyev Mustafa Mirtəği oğlu*** – 18 aprel1977-ci ildə Lerik rayonunun Dico kəndində anadan olub. 1984-cü ildə Dico kənd məktəbinin birinci sinfinə gedib, dördüncü sinfi burda bitirdikdən sonra təhsilini Tikəband kənd orta məktəbində davam etdirərək 1994-cü ildə həmin məktəbin onuncu sinfini bitirir.

Orta məktəbi bitirdikdən sonra 1995-ci ilin iyul ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Xidməti müddətində Mustafa özünün nümunəvi davranışı, əsgəri intizamı ilə komandirlərinin hörmətini qazanmış, vətənə olan borcunu əsl azərbaycanlı kimi yerinə yetirməyə çalışmışdır.

Mustafa Quliyev sərhədlərimizin keşiyində ayıq-sayıq dayanaraq düşmən həmlələrinin qarşısını mətanətlə almışdır.

22 fevral 1996-cı ildə vətənin qəhrəman oğul Mustafa Quliyev xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**GƏRAY RƏHİMOV**
**(1977 - 1997)**

***Rəhimov Gəray Şahverdi oğlu***– 13 yanvar 1977-ci ildə Lerik rayonunun Buzeyir kəndində anadan olub. 1984-cü ildə Pirasora kənd tam orta məktəbinin birinci sinfinə daxil olub, 1994-cü ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 1995-ci ildə Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Gəray Rəhimov hərbi xidmətə Qazax rayonunda yerləşən 707 saylı hissədə başlayır. Qrxmazlığı və döyüş bacarığı ilə seçilən Gəray torpaqlarımızın qorunması zamanı igidlik və qəhrəmanlıq nümayiş etdirərək əsgəri borcunu yerinə yetirməyə çalışmışdır.

Gəray Rəhimov 30 may 1997-ci ildə Qazax rayonunda xidməti borcunu yerinə yetirən zaman düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**RÜFƏT QULİYEV**
**(1981 - 2001)**

***Quliyev Rüfət Ağaqulu oğlu*** – 28 sentyabr 1981-ci ildə Lerik rayonunun Mulalan kəndində anadan olub. 1990-cı ildə Mulalan kənd orta məktəbinin birinci sinifinə qəbul olub, 2000-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

1999-cu ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb. Xidmət yolu Daşkəsən rayonunda yerləşən hərbi hissədən keçib.

Xidməti müddətində Rüfət özünün nümunəvi davranışı, əsgəri intizamı ilə komandirlərinin hörmətini qazanmış, vətənə olan borcunu əsl azərbaycanlı kimi yerinə yetirməyə çalışmışdır.

Rüfət Quliyev 02 yanvar 2001-ci ildə Daşkəsən rayonunda yerləşən Qabağtəpə ərazisində xidməti borcunu yerinə yetirərkən baş vermiş qar uçqunu nəticəsində həlak olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**RAUF KƏRİMOV**
**(1982 - 2001)**

***Kərimov Rauf Əlizadə oğlu*** – 28 iyun 1982-ci ildə Lerik rayonunun Mulalan kəndində anadan olub. 1990-cı ildə Mulalan kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 2000-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

2000-ci ilin dekabr ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Xidmət yolu Daşkəsən rayonunda yerləşən hərbi hissədən keçmişdir. Xidməti müddətində özünü nizam-intizamlı aparmış, dəfələrlə komandirləri tərəfindən təşəkkürnamələrə layiq görülmüşdür.

Gənc əsgər Rauf Kərimov 02 yanvar 2001-ci ildə Daşkəsən rayonunda yerləşən İnaldağ yüksəkliyində xidməti borcunu yerinə yetirərkən qar uçqunu nəticəsində həlak olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



**GÜLMƏMMƏD ABDULLAYEV**
**(1983- 2003)**

***Gülməmməd Şıxməmməd oğlu*** – 20 sentyabr 1983-cü ildə Lerik rayonunun Amburdərə kəndində anadan olub. 1990-cı ildə Amburdərə kənd ümumi orta məktəbinin birinci sinifinə qəbul olunub, 2000-ci ildə Kəlvəz kənd orta məktəbin onuncu sinfini bitirib.

2001-ci ilin oktyabr ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Xidmət yolu Murovdağdan keçmişdir. Xidməti müddətində özünü nizam-intizamlı aparmış, əsgər yoldaşlarının və komandirlərinin hörmətini qazanmış, vətənə layiq əsgər olmağa çalışmışdır.

Gülməmməd Abdullayev 02 mart 2003-cü ildə Murovdağ yüksəkliyində xidməti borcunu yerinə yetirərkən qar uçqunu nəticəsində həlak olub.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



## ELŞƏN HƏSƏNOV
## (1985 – 2004)

***Həsənov Elşən Əlihüseyn oğlu*** – 1985-ci il iyun ayının 28-də Lerik rayonunun Murya kəndində anadan olub. 1992-ci ildə Murya kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 2002-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbini bitirdikdən sonra 2003-cü ilin oktyabr ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq əsgərliyə yola salınıb. Daşkəsən rayonunda yerləşən hərbi hissədə əsgəri xidmətə başlayıb.

Xidməti dövründə özünü nizam-intizamlı aparan Elşən dəfələrlə komandirlərinin təşəkkürünü qazanmışdır.

Elşən Həsənov 2004-cü il may ayının 23-də xidməti borcunu yerinə yetirərkən şəhid olub.

**Elşənin dayısı Nur Aydın Manaflının dilindən;**

***Hünərlə düşmənin önündə durdu,***
***Yazdı ürəklərə adını Elşən.***
***Sərsəngdə vuruşdu, qorudu yurdu,***
***İçdi bir şəhidlik andını Elşən.***

***Burda bir şəhidin məzar daşı var,***
***Ruhu ürəklərdən görünüb yatır.***
***Burda tarixlərin qan yaddaşı var,***
***Üç rəngli bayrağa bürünüb yatır.***



**ŞƏMSİ RZAYEV**
**(1987 – 2007)**

***Rzayev Şəmsi Aslan oğlu*** – 27 avqust 1987-ci ildə Lerik rayonunun Sors kəndində anadan olub. 1994-cü ildə Sorus kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2005-ci ildə həmin məktəbin onuncu sinfini bitirib. Atası Aslan kişi övladlarını vətənpərvərlik ruhunda tərbiyə etmiş, vətənin, torpağın müqəddəsliyini hər zaman onlara aşılamağa çalışmışdır. Elə bu səbəbdən də ailənin böyük oğlu Malik Rzayev vətənə xidmət yolunu seçərək əvvəlcə Naxçıvan Muxtar Respublikasında tağım komandiri vəzifəsində xidmət etmiş, hal-hazırda isə Beyləqanda xidmətini davam etdirməkdədir.

Ailənin kiçik övladı olan Şəmsi Rzayev də orta məktəbi bitirdikdən sonra ordu sıralarına çağrılır. O, 2005 ci ilin oktyabr ayında Qazax rayonunun Quşçu Ayrım kəndində xidmətə başlayır. Vətənin keşiyində mətanətlə dayanan bu vətənpərvər gənc Qazax rayonunun Quşçu Ayrım və Aşağı Əskipara kəndlərində xidmet edir.

2007-ci il yanvar ayının 31-də xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələn Şəmsi Rzayev canını vətənə qurban verərək şəhidlik zirvəsinə ucalır.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



**AMİL ƏLİYEV**
**(1988 – 2012)**

***Əliyev Amil Novruz oğlu*** - 1988-ci ildə Neftçala rayonuda anadan olub. Atası Lerikdə anadan olub. Sovet vaxtı təyinatını Biləsuvara aldığı üçün ailəsi ilə orada yaşamalı olur. Ona görə də evin hər üç uşağı Biləsuvar qeydiyyatındadır.

Biləsuvar rayonunda orta məktəbi bitirən Amil 2006-ci ildə həqiqi hərbi xidmətə yollanır. 2008-ci ildə hərbi xidməti başa vuran Amil bir il Bakıda işlədikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət üçün sənədlərini verir. Nizamnaməyə görə, müddətdən artıq həqiqi hərbi xidmət etmək istəyənlər yaşadığı ünvana yaxın hərbi hissələrin birində qulluq etməlidir. Amil sənədlərini verəndən sonra xəbər alır ki, onu Səngəçala göndərmək istəyirlər. Ancaq o, öz ərizəsi ilə cəbhə bölgəsinə yollanır.

Amil 2012-ci il mayın 29-da 6 günlüyə evə məzuniyyətə gəlir. Səbəb isə bacısının toyu olur.Toyu yola verdikdən sonra xidmət yerinə yollanır. Getdiyi günün səhəri xidməti yerində düşmən hücununun qarşısını alarkən qəhrəmancasına şəhid olur. Şəhidin cənazəsi Lökbatan qəsəbəsinə gətirilərək Şəhidlər xiyabanında torpağa tapşırılır.



**CAVİD ŞAHBAZOV**
**(1984- 2003 )**

***Şahbazov Cavid Tarverdi oğlu***- 26 aprel 1984-cü ildə Lerik rayonunun Bülüdül kəndində anadan olub. 1991-ci ildə Bülü-dül kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2001-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıaraq 01 iyun 2002-ci ildə Milli ordu sıralarına yola salınır.

Xidməti dövründə özünü nizam-intizamlı əsgər kimi aparmış, vətənin keşiyində əsl azərbaycanlı kimi dayanaraq xidməti borcunu yerinə yetirməyə çalışmışdır.

Cavid Şahbazov 06 avqust 2003-cü ildə xidməti borcunu yerinə yetirdiyi zaman düşmən gülləsinə tuş gələrək şəhid olub.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılıb.



## ZAMİN HƏSƏNOV
## (1983- 2002 )

***Həsənov Zamin Gülağa oğlu*** **–** 1983-cü il oktyabr ayının 29-daildə Lerik rayonunun Siyov kəndində anadan olub. 1990-cı ildə Siyov kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2001-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 2002-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Zamin hərbi xidmətə Nasosnuda yerləşən Hərbi hissədə başlamışdır. Xidməti dövründə özünü nizam-intizamlı əsgər kimi aparmış, vətənin keşiyində əsl azərbaycanlı kimi dayanaraq xidməti borcunu yerinə yetirməyə çalışmışdır.

Zamin Həsənov 2002-ci il oktyabr ayının 30-da xidməti vəzifəsini yerinə yetirərməyə gedərkən yol qəzasında həlak olub.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək dəfn olunub.



**RAMİN QURBANOV**
**(1981-199?)**

***QurbanovRamin Rukəxanoğlu-*** 1981-ci ildə Lerik rayonunun Noda kəndində anadan olub. 1987-ci ildə Noda kənd orta məktəbinin birinci sinfinə gedib, 1996-cı ildə həmin məktəbin doqquzuncu sinifini bitirib.

O, dərslərindən yüksək qiymətlər almasa da, ağıllı sözləri, sakit təbiəti ilə hamının sevimlisi idi.

Orta məktəbi bitirdikdən sonra 1999-cu ildə Lerik rayon hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Milli ordu sıralarına yola salınıb.

Ramin az bir müddətdə xidmət etdiyi hərbi hissədə həm komandirlərinin, həm də əsgər yoldaşlarının rəğbətini qazanır.

Ramin Qurbanov xidmət etdiyi döyüş postunda düşmən təxribatının qarşısını alarkən, bir neçə ermənini əskərini qətlə yetirib özü də minaya düşərək şəhid olur.Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.

.



**RUSLAN AĞAYEV**
**(1991-2015)**

***Ağayev Ruslan Qalib oğlu*** **–** 1991-ci ildə Lerik rayonunun Pirasora kəndində anadan olub. 1998-ci ildə Şəhid Azər Təhməzov adına Pirasora kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2008-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra 2009-cu ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınmışdır. Hələ orta məktəbdə oxuyarkən ürəyi vətən sevgisiylə çırpınan bu gənc qəhrəman zabit olmaq arzusunda idi. Elə "Azərbaycan qəhrəmanları" mövzusunda yazdığı inşasında; ***"Mən Azərbaycanın qəhrəman oğulları kimi canımı vətənə qurban verməyə hazıram"***kimi ifadələr işlədərək vətənə olan sevgisini dilə gətirmişdir. Qazax rayonunda hərbi xidmətə başlayan Ruslan xidmət müddəti bitdikdən sonra zabitlik kursu keçərək gizir kimi Milli orduda xidmətini davam etdirir. O, sərhədlərimizin qorunmasında ayıq-sayıq dayanaraq dəfələrlə düşmən həmləsinin qarşısını alaraq öz döyüş bacarığı ilə seçilir.

2015-ci ilin sentyabr ayında Qazax cəbhəsində düşmənin növbəti hiyləsinin qarşısını alarkən qəhrəmancasına şəhid olur.

Gizir Ruslan Qalib oğlu Ağayev ölümündən sonra***"Hərbi xidmətdə fərqlənməyə görə"*** 3-cü dərəcəli medala layiq görülmüşdür.



**GÜLOĞLAN ŞAHMURADOV**
**(1987 - 2007)**

***Güloğlan Şıxməmməd oğlu*** – 28 noyabr 1987-ci ildə Lerik rayonunun Loda kəndində anadan olub. 1995-ci ildə Lənkəran rayonunun Biləsər kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 2005-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Hərbi komissarlıq tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Xidmət yolu Gədəbəy rayonunda yerləşən hərbi hissədən keçib. Xidməti müddətində özünü nizam-intizamlı aparmış, dəfələrlə komandirləri tərəfindən təşəkkürnamələrə layiq görülmüşdür.

Güloğlan Şahmuradov 08fevral 2007-ci ildə Gədəbəy rayonunda yerləşən sərhəd məntəqəsində xidməti borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək şəhid olub. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək şərəflə torpağa tapşırılıb.



**NAMAZ MURADOV**
**(1984 – 2003)**

***Muradov Namaz Fərman oğlu*** – 14 oktyabr 1984-cü ildə Lerik rayonunun Günəşli (Azərbaycan) kəndində dünyaya göz açıb. 1991-ci ildə Günəşli kənd orta məktəbinin birinci sinfinə daxil olub, 2002-ci ildə həmin məktəbin onuncu sinfini bitirib. Həmin ilin oktyabr ayının 20-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Milli ordu sıralarına yola salınıb. Hərbi xidmətə Ağdam rayonunun Mərizli kəndində N-saylı hərbi hissədə başlayıb.

Namaz xidmət etdiyi hərbi hissədə həm komandirlərinin, həm də əsgər yoldaşlarının rəğbətini qazanır. Göstərdiyi xidmətlərə görə bir neçə dəfə Fəxri fərmanlarla təltif edilir.

Namaz Muradaov 18 avqust 2003-cü ildə xidməti vəzifəsini yernə yetirərkən düşmən snayperindən açılan atəş nəticəsində baş nahiyəsindən ağır yaralanır, onu Ağcəbədi rayonunun Sarıclar kəndindəki Hospitala gətirsələr də həyatını xilas etmək mümkün olmur. Həmin ilin avqust ayının 23-də o, əbədiyyətə qovuşur. Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək torpağa tapşırılır.



## NATİQ TAHİRLİ
## (1997-2016)

***Tahirli Natiq Namiq oğlu –*** 1997-ci ildə Lerik rayonunun Almu kəndində anadan olub. 2004-cü ildə orta məktəbin birinci sinfinə daxil olub, 2015-ci ildə orta məktəbi bitirib.

Orta məktəbi bitirdikdən sonra Bakının Nizami rayonu Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq Milli ordu sıralarına yola salınıb.

Natiq Goranboyun Tapqaraqoyunlu kəndində xidmət edib. O, aprel döyüşlərində də qəhrəmanlıq göstərib və buna görə tərifnamə də alıb.

Tahirli Natiq Namiq oğlu 2016-cı il may ayının 17-də qoşunların təmas xəttində qarşı tərəflə atışmada qəhrəmancasına şəhid olub. 19-yaşlı Tahirli Natiq Namik oğlunun cənazəsi doğulduğu Lerik rayonunun Almu kəndinə gətirilib. Kənd öz şəhid övladını adına layiq hörmətlə, ehtiramla qarşılayıb. Şəhid yaylım atəşləri ilə torpağa tapşırıldıqdan sonra tabutuna bükülən üçrəngli bayraq ailə üzvlərinə təqdim edilib.

Şəhidin dəfn mərasimində bildirilib ki, Natiq həmişə hərbçi olmaq arzusu ilə yaşayıb, hətta hərbi xidməti başa vurduqdan sonra da xidmətini orduda davam etdirmək fikrində olub.



## VÜSAL ƏLİYEV
## (1996-2016)

***Əliyev Vüsal Əmir oğlu*** – 1996-cı ildə Lerik rayonun Noda kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra Vüsal Əliyev Rabitə Kollecinə daxil olmuş, Kolleci bitirdikdən sonra isə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq milli ordu sıralarına yola salınmışdır.

O, Qazax rayonunda yerləşən hərbi hissədə xidmətə başlayıb, xidməti müddətində cəsurluğu və hərbi bacarığına görə seçilib.

Son üçtərəfli danışıqlarda əldə edilən razılaşmaya baxmayaraq, düşmən tərəf atəşkəs rejimini pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədində növbəti dəfə təxribat törədir, 05 iyul 2016-cı ildə düşmənin açdığı atəş nəticəsində Vüsal Əliyev şəhid olur.

Şəhidin cənazəsi doğulduğu kəndə gətirilərək yaylım atəşi altında torpağa tapşırılır. Mərasimdə səslənən çıxışlarda şəhidin cəsurluğundan danışılıb, onun timsalında bütün şəhidlərin qəlblərdə, xalqın yaddaşında əbədi olaraq yaşayacağı bildirilib.



# HƏLƏ YOL GÖZLƏYƏN VAR...



**TELMAN KAZIMOV**
**(1969- ?)**

***Kazımov Telman Mirzəxan oğlu*** - 1969-cu ildə Lerik rayonunun Veri kəndində anadan olub. Anası dünyadan köçdüyü zaman onun hələ 9-yaşı var idi. Ana niskiliylə böyüyən Telman Vətəni öz anası kimi sevərək böyümüşdür. 1976-cı ildə Veri kənd orta məktəbinin birinci sinfinə getmiş, 1986-ci ildə Veri kənd orta məktəbinin onuncu bitirmişdir.

1987-ci ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Telman keçmiş Sovet ordu sıralarına yola salınıb. Vladivastok şəhərində hərbi xidmətdə olub. 1989-cu ildə ordudan tərxis olunmuşdur.

Qarabağ savaşı başladığına görə soydaşlarını yalnız qoymayıb 1991-ci ildə Laçın rayonuna yollanır. 1992-ci il yanvarın 14-də soydaşları ilə bərabər Laçın rayonu uğrunda gedən döyüşlər zamanı itkin düşür.

Veri kənd orta məktəbi Telman Kazımovun adını daşıyır.

1997-ci il də Lerik məhkəməsi tərəfindən Kazımov Telman Mirzəxan oğluna şəhid statusu verilib.



**ZAHİD ABBASOV**
**(1968- ?)**

***Abbasov Zahid Ziyad oğlu*** – 26 yanvar 1968-ci ildə Lerik rayonunun Laman kəndində anadan olub. 1975-ci ildə Laman kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1985-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonraLerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq keçmiş Sovet ordu sıralarına yola salınıb.

Hərbi xidmətini başa vurduqdan sonra vətənə qayıdır və burada işləməyə başlayır.

Qarabağ savaşı başlandığından Zahid də digər qeyrətli vətən oğulları kimi könüllü olaraq döyüşə yollanır. Tərtər, Kəlbəcər və digər rayonların müdafiəsində iştirak edərək qəhrəmanlıqlar göstərir.

Zahid Abbasov Kəlbəcər rayonu uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

Lerik Rayon Məhkəməsi tərəfindən Abbasov Zahid Ziyadoğluna şəhid statusu verilib.



## MƏHƏBBƏT MƏHƏRRƏMOV (1974- ?)

***Məhəbbət Həsən oğlu*** – 26 iyun 1974-cü il Lerik rayonun Veri-Əliabad kəndində dünyaya göz açıb. 1981-ci ildə Veri-Əliabad kənd orta məktəbinin birinci sinfinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Məhəbbət Məhərrəmov təhsil aldığı müddət ərzində öz tərbyyəsi və vətənpərvərliyi ilə yoldaşlarından fərqlənərək hər kəsin hörmətini qazanır.

Orta məktəbi "əla" qiymətlə bitirən Məhəbbət 1991-ci ildə Lənkəran Şəhər Baytarlıq Texnikumuna daxil olur. Erməni terrorçuların torpaqlarmıza göz dikmələri, torpaqlarmızın işğalı və xalqımıza qarşı törədilən vəhşiliklər təbii ki, Məhəbbəti də rahat buraxmır. O da digər qeyrətli oğullarmız kimi təhsilini yarımçıq qoyaraq 1992-ci ildə könüllü olaraq hərbi xidmətə yollanır.

Göstərdiyi şücaət və qəhramlığı ilə fərqlənən Məhhəbbət 1993-cü il fevral ayının 8-də Qarabağ döyüşlərində itkin düşür.

Lerik Rayon Məhkəməsi tərəfindən Məhərrəmov Məhəbbət Həsən oğluna şəhid statusu verilib.



## SƏRDAR VEYSƏLOV
## (1974- ?)

***Veysəlov Sərdar Extiyar oğlu*** – 15 aprel 1974-cü ildə Lerik rayonunun Soru kəndində anadan olub. Sərdar Veysəlov 1981-ci ildə Soru kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

1992-ci il iyul ayının 7-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Sərdar Veysəlov cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif bölgələrindən keçir. Ağdərə bölgəsində gedən döyüşlərdə şücaətlər göstərir. Son döyüş yeri də Ağdərə rayonu olur.

Sərdar Veysəlov 4 iyul 1993-cü ildə Ağdərə uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

2001-ci ildə Lerik Rayon Məhkəməsi tərəfindən Sərdar Extiyar oğlu Veysəlova şəhid statusu verilib.



## AQŞİN DÖVLƏTOV
## (1974- ?)

***Dövlətov Aqşin Tarverdi oğlu*** – 15 iyun 1974-cü ildə Lerik rayonunun Soru kəndində anadan olub. Dövlətov Aqşin 1981-ci ildə Soru kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

1992-ci il iyul ayının 22-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Dövlətov Aqşin cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif bölgələrindən keçir. Ağdərə bölgəsində gedən döyüşlərdə şücaətlər göstərib. Son döyüş yeri də Ağdərə rayonu olub.

Dövlətov Aqşin 10 noyabr 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

2001-ci ildə Lerik Rayon Məhkəməsi tərəfindən Dövlətov Aqşin Tarverdi oğluna şəhid statusu verilib.



**ALXAS NODİYEV**
**(1971-?)**

***Nodiyev Alxas Cavad oğlu*** – 1971-ci ildə Lerik rayonunun Orand kəndində anadan olub. 1978-ci ildə Orand kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Alxas keçmiş Sovet ordu sıralarına yola salınıb. 1990-cı ildə hərbi xidmətini başa vuraraq vətənə qayıdır. Qarabağ savaşı zamanı könüllü olaraq milli ordu sıralarına qoşulur.

Alxasın döyüş yolu Ağdərə rayonundan başlayır. Ağdərənin müdafiəsində igidliklər göstərən Alxas 8 sentyabr 1992-ci ildə Ağdərə uğrunda gedən döyüşlər zamanı itkin düşür.

Lerik rayon məhkəməsinin 2011-ci ildə qəbul etdiyi qətnaməyə əsasən Nodiyev Alxas Cavad oğluna şəhid statusu verilib.



**AZAD BAYRAMOV**
**(1973-?)**

***Bayramov Azad Muxtar oğlu*** **-** 1973-cü ildə Lerik rayonunun Siyov kəndində anadan olub. 1980-ci ildə Siyov kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonraLerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Azad döyüş bölgəsinə göndərilir.

Azadın döyüş yolu Fizuli rayonundan başlanır. O, Füzuli rayonu uğrunda gedən döyüşlərdə iştirak edərək igidliklər göstərir.

Azad Bayramov 14 avqust 1993-cü ildə Füzuli rayonunda yerləşən Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

1997-ci ildə Lerik rayon məhkəməsi tərəfindən Bayramov Azad Muxtar oğluna şəhid statusu verilib.



## TƏRLAN RÜSTƏMOV
## (1974- ?)

***Rüstəmov Tərlan Kamal oğlu*** – 21 mart 1974-cü ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. Tərlan 1981-ci ildə Biləvər kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin on birinci sinfini bitirib.

1992-ci ilin iyul ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Rüstəmov Tərlan cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Ağdərə cəbhəsindən keçir. Ağdərə bölgəsində gedən döyüşlərdə şücaətlər göstərir. Son döyüş yeri də Ağdərə rayonunun Sırxavənd bölgəsi olur.

Rüstəmov Tərlan Kamal oğlu 10 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd bölgəsi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

2011-ci ildə Lerik məhkəməsi tərəfindən Rüstəmov Tərlan Kamal oğluna şəhid statusu verilib.



**NAMİQ ƏLİYEV**
**(1974- ?)**

***Əliyev Namiq Gülbaba oğlu*** – 17 mart 1974-cü ildə Lerik rayo-nunun Şivlə kəndində anadan olub. Namiq 1981-ci ildə Biləvər kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1992-ci ildə həmin məktəbin on birinci sinfini bitirib. Lənkaran şəhərindəki Texniki Peşə məktəbində 6 aylıq kurs keçərək sürücülük peşəsinə yiyələnib. 1992-ci ilin iyul ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Namiq cəbhə bölgə-sinə yola salınır.

Döyüş yolu Ağdərə cəbhəsindən keçir. Ağdərə bölgə-sində gedən döyüşlərdə xüsusi fəallıq göstərir. Son döyüş yeri də Ağdərə rayonunun Sırxavənd bölgəsi olur. Əliyev Namiq Gülbaba oğlu 10 sentyabr 1992-ci ildə Ağdərə rayonunun Sırxavənd bölgəsi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

2011-ci ildə Lerik məhkəməsi tərəfindən Əliyev Namiq Gülbaba oğluna şəhid statusu verilib.



**ƏMRAH MƏMMƏDOV**
**(1975- ?)**

***Məmmədov Əmrah Salman oğlu*** – 06 may 1975-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. 1982-ci ildə Biləvər kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1993-cü ildə həmin məktəbin on birinci sinfini bitirib. Lənkaran şəhərindəki Texniki Peşə məktəbində 6 aylıq kurs keçərək sürücülük peşəsinə yiyələnib.

1993-cü il oktyabr ayının 21-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılaraq cəbhə bölgəsinə yola salınıb.

Döyüş yolu Fizuli cəbhəsindən keçib. Tank briqadasında xidmətə başlayan Əmrah Fizuli rayonu uğrunda gedən döyüşlərdə xüsusi fəallıq göstərib, düşmənin bir çox canlı qüvvəsini və hərbi texnikasını sıradan çıxarıb. Son döyüş yeri Fizuli rayonunun Aşağı Əbdürrəhmannı kəndi olub. 1994-cü il yanvar ayının 11-də Fizuli rayonunun Aşağı Əbdürrəhmannı kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

**Əmrahın anasının dilindən bayatı:**

***Əzizinəm dağ olsun,***
***Dərd ürəkdə dağ olsun.***
***Balam Allah əmanəti,***
***Vətən, başın sağ olsun.***



**NAİL DƏNZİYEV**
**(1974 – ?)**

***Dənziyev Nail Fail oğlu –*** 29 may 1974-cü ildə Lerik rayonunun Mastayıl kəndində anadan olub. 1981-ci ildə Mastayıl kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1991-ci ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Nail döyüş bölgəsinə göndərilib.

Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak edib və qəhrəmanlıqlar göstərib. Son döyüş yeri Ağdərə rayonu olub.

Nail Dənziyev 1992-ci ildə Ağdərə rayonunun Sırxavand qəsəbəsi uğrunda gedən döyüşlərdə itkin düşüb.

Lerik məhkəməsi tərəfindən Dənziyev Nail Fail oğluna şəhid statusu verilib.



## TOFİQ FEYZİYEV
## (1974- ?)

***Feyziyev Tofiq İzzət oğlu –*** 03 mart 1974-cü ildə Lerik rayonunun Aran kəndində anadan olub. 1981-ci ildə Aran kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1991-ci ildə orta məktəbin onuncu sinfini bitirib.

1992-ci ilin avqust ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Tofiq cəbhə bölgəsinə yola salınır.

Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif bölgələrindən keçir. Laçın rayonu uğrunda gedən döyüşlərdə şücaətlər göstərir. Bu döyüşlərdə yaralanaraq Gəncə Hospitalına gətirilir, sağaldıqdan sonra doğulduğu Aran kəndinə gələrək ailəsi ilə sağollaşır və yenidən cəbhə bölgəsinə qayıdır. Son döyüş yeri Murov cəbhəsi olur.

Tofiq Feyziyev 1994-cü ilin fevral ayında Murovda gedən döyüşlər zamanı itkin düşüb.

2013-cü ildə Lerik Rayon Məhkəməsi tərəfindən Feyziyev Tofiq İzzət oğluna şəhid statusu verilib.



**ƏHLİMAN KAZIMOV**
**(1973 – ?)**

***Kazımov Əhliman Panəli oğlu*** – 1973-cü il oktyabr ayının 10-da Lerik rayonunun Əliabad kəndində anadan olub. 1980-ci ildə Gürdəsər kənd orta məktəbinin birinci sinifinə qəbul olunub, 1990-cı ildə Murya kənd orta məktəbinin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıb.

Əhliman Kazımov 1992-ci ilin may ayında cəbhə bölgəsinə yola salınır. O, Qarabağ cəbhəsinin müxtəlif istiqamətlərində gedən döyüşlərdə iştirak edib və qəhrəmanlıqlar göstərib.

1992-ci il noyabr ayının 2-də Qarabağ uğrunda gedən qanlı müharibələrin birində itkin düşüb.

Lerik məhkəməsi tərəfindən Kazımov Əhliman Panəli oğluna şəhid statusu verilib.



**NADİR HƏSƏNOV**
**(1975- ?)**

***Həsənov Nadir Sərməst oğlu***– 1975-ci ildə Lerik rayonunun Durğan kəndində anadan olub. 1982-ci ildə Durğan kənd natamam orta məktəbinin birinci sinfinə, 1985-ci ildə Murya kənd 11 illik məktəbinə daxil olub. 1990-cı ildə həmin məktəbin səkkizinci sinfini fərqlənmə diplomu ilə bitirib.

1990-cı ilin sentyabr ayında H. B. Tağıyev adına Bakı Maliyə Kredit Texnikumunun mühasibatlıq şöbəsinə daxil olub.

1994-cü ilin yanvar ayında Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Nadir cəbhə bölgəsinə yola salınıb.

Nadir Həsənov 1994-cü il aprel ayının 20-də Kəlbəcər rayonunda yerləşən Əmirdağ yüksəkliyi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

Lerik Rayon Məhkəməsi tərəfindən Həsənov Nadir Sərməst oğluna şəhid statusu verilib.



**ZİYAD VAHABOV**
**(1973- ?)**

***Vahabov Ziyad Bahəddin oğlu*** – 1973-cü il sentyabr ayının 7-də Lerik rayonunun Gürdəsər kəndində anadan olub. 1980-ci ildə Gürdəsər kənd orta məktəbinin birinci sinfinə daxil olub. 1991-ci ildə həmin məktəbin onbirinci sinfini bitirib.

1992-ci il may ayının 13-də Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılıb. Ziyad Vahabov Daxili Qoşunların Montində yerləşən 3280 saylı hərbi hissəsində xidmətə başlayıb. Bir müddət orada təlim keçdikdən sonra cəbhə bölgəsinə yola salınıb.

Ziyad Vahabov Ağdərə rayonu uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

Lerik Rayon Məhkəməsi tərəfindən Vahabov Ziyad Bahəddin oğluna şəhid statusu verilib.



**ARZUMAN SƏFƏROV**
**(1973- ?)**

***Səfərov Arzuman Canəli oğlu***– 05 sentyabr 1973-cü ildə Lerik rayonunun Cəngəvud kəndində anadan olub. 1980-ci ildə Vizəzəmin kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılaraq Qarabağ cəbhəsinə göndərilib.

27 may 1992-ci ildə Fizuli rayonunda hərbi xidmətə başlayıb. Arzuman Fizuli rayonu uğrunda gedən qanlı döyüşlərdə iştirak edərək qəhrəmanlıqlar göstərib. Dəfələrlə düşmənə qarşı təşkil olunmuş əməliyyatlarda iştirak edib, döyüş bacarığı ilə fərqlənib.

Arzuman Səfərov 14 avqust 1993-cü ildə Fizuli rayonunun Qızılqaya kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

Lerik Rayon Məhkəməsi tərəfindən Səfərov Arzuman Canəli oğluna şəhid statusu verilib.



**ƏFQAN MƏMMƏDOV**
**(1974- ?)**

***Məmmədov Əfqan Ağasən oğlu***– 08 dekabr 1974-cü ildə Lerik rayonunda anadan olub. 1981-ci ildə Lerik rayon 1 saylı orta məktəbinin birinci sinfinə daxil olub, 1988-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirib.

23 oktyabr 1993-cü ildə Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan Əfqan Məmmədov cəbhə bölgəsinə yola salınıb.

Hərbi xidmətə 703 saylı hərbi hissədə başlasa da, daha sonra Qarabağ cəbhəsinin müxtəlif bölgələrində döyüş yolu keçib. Ağdam uğrunda gedən döyüşlərdə şücaətlər göstərib. Son döyüş yeri də Ağdam rayonunun Salahlı kəndi olub.

Əfqan Məmmədov 12 yanvar 1994-cü ildə Ağdam rayonunun Salahlı kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

04 fevral 1997-ci ildə Lerik Rayon Məhkəməsi tərəfindən Məmmədov Əfqan Ağasən oğluna şəhid statusu verilib.



**İLHAM ŞƏRİFOV**
**(1973- ?)**

***Şərifov İlham Sahib oğlu*** – 28 noyabr 1973-cü ildə Lerik rayonunun Vijaker kəndində anadan olub. İlham Şərifov 1980-ci ildə Conu kənd orta məktəbinin birinci sinfinə daxil olub, 1990-cı ildə həmin məktəbin onuncu sinfini bitirib.

Orta məktəbi bitirdikdən sonra Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağrılan İlham Şərifov cəbhə bölgəsinə yola salınıb.

Döyüş yolu Qarabağ cəbhəsinin müxtəlif bölgələrindən keçib. Ağdam bölgəsində gedən döyüşlərdə iştirak edərək şücaətlər göstərib. Son döyüş yeri də Ağdam rayonunun Mərizli kəndi olub.

İlham Şərifov 23 dekabr 1993-cü ildə Ağdam rayonunun Mərizli kəndi uğrunda gedən döyüşlər zamanı itkin düşüb.

Lerik Rayon Məhkəməsi tərəfindən Şərifov İlham Sahiboğluna şəhid statusu verilib.

# SON SÖZ

***Əziz oxucular!***

Bildiyiniz kimi, vətənimiz Azərbaycan zaman-zaman xarici işğalçıların, ərazi bütövlüyümüzə göz dikən qəsbkarların hücumlarına məruz qalıb. Vətənimizin ərazi bütövlüyü uğrunda mübarizə aparan xalqımız bu yolda çoxlu itkilər vermiş, qalibiyyətlərlə yanaşı, məğlubiyyətlər də yaşamışdır. Bu savaşlarda isə xalqımızın mərd övladları qanları və canları bahasına tarixin şanlı səhifələrində yeni mübarizlik səhifələri açmışlar.

Hər qarışı şəhid məzarı, hər ovuc torpağı şəhidlərin qanı ilə yoğrulan bu müqəddəs torpaq dəfələrlə parçalanaraq bugünkü Azərbaycan halına düşmüşdür.

Bu müharibələrdən biri də çoxlu insan tələfatına səbəb olmuş 1-ci Qarabağ savaşıdır.

Azərbaycanın digər rayonları kimi Lerik rayonu da Qarabağ savaşında iki yüzə yaxın şəhid və itkin verərək tarixin ağrılı səhifələrinə adını yazmışdır.

Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağa göz dikən erməni qəsbkarlarına qarşı mübarizə aparan və bu yolda canlarından keçərək şəhidlik zirvəsinə ucalan vətən oğulları haqqında çoxlu əsərlər yazılmış, filmlər çəkilmişdir.

Eyni zamanda, Lerik şəhidləri haqqında da bir sıra kitablar, poemalar, şeirlər, publisistik əsərlər yazilaraq onların adları əbədiləşdirilmişdir. Belə ki, ölkənin tanınmış qələm adamları - ***Şəkər Aslan, İdris Şükürlü, Hüsaməddin Abbasov, Novruz Nəcəfoğlu, Dəstəgül Zamanlı, Qədiməli Əhməd*** və digərləri zaman-zaman bu mövzularda bədii və publisistik əsərlərlə çıxış etmişlər.

Bu mövzuda Əməkdar jurnalist, şair-publisist İdris Şükürlünün qələmə aldığı ***"Ölsən, inanma"*** kitabını və yazıçı publisist Hüsaməddin Abbasovun publisistik məqalələrini xüsusi qeyd etmək olar.

***"Əbədiyyət yolçuları"*** kitabında da biz Lerik rayonundan olan 148 şəhid və itgin haqqında məlumat verərək az da olsa, vətən qarşısında öz vətəndaşlıq borcumuzu yerinə yetirməyə çalışmışıq.

Onu da qeyd edək ki, bu mövzudakı əsərlər təkcə ağrı-acılı tarix deyil, həm də gələcək nəsillərə mesajdır. Bu mövzuda əsərlər yazan həmkarlarımıza da təşəkkür edirik.

***Tərtibçi***

## KİTABIN İÇİNDƏKİLƏR

## ÖLÜM SEVİNMƏSİN...

Şahbazov Fəxrəddin İbrahim oğlu....................................................4
Müslümov Valeh Əlizaid oğlu..........................................................5
Abdulayev Rövşən Əbdülhüseyn oğlu ................................ .....6
Ağayev Fərhad İslam oğlu................................................................ 7
Əliyev Əsgər Ələkbər oğlu ................................................................ 8
Pələngov Bünyadəli Qulam oğlu........................................... 9
Hacıyev Səxavət Əbi oğlu ...............................................................10
Ağayev Cəbrayıl Atamalı oğlu........................................................11
Salayev Xaqani Şəfəqqət oğlu........................................................12
Qafarov Mehman Yəhya oğlu..........................................................13
Kərimov Anar İntiqam oğlu ............................................................14
Hacıyev Etiqat Balaxan oğlu...........................................................15
Qafarov Fuad Xansuvar oğlu..........................................................16
Mədətov İsfəndiyar Macir oğlu .....................................................17
İbadov Mikail Qubad oğlu...............................................................18
Əsədullayev Arzuman Azadxan oğlu............................................19
Ağayev Nazim Ziyad oğlu ...............................................................20
Rüstəmov Rza Sulduz oğlu..............................................................21
Ağayev Fəzail Əmir oğlu .................................................................22
Ağayev Lətif Xeyrulla oğlu .............................................................23
Əliyev Qadir Ağababa oğlu .............................................................24
Mikayılov Fərəməz Şəmi oğlu ........................................................25
Kazımov Fərman Salman oğlu .......................................................26
Ziyadov Mübariz Musa oğlu ..........................................................27
Səfərov Elşən Məmmədağa oğlu ...................................................28
Musayev Əbülfət Nəsirulla oğlu....................................................29

**Əliyev Sabir Xeyrulla oğlu......30**
**Bünyadov Mərdan Sabir oğlu......31**
**Tağıyev Zamir Atakişi oğlu......32**
**Canıyev Famil Bəhram oğlu......33**
**Vahabov Əliniyaz Əhmədəli oğlu......34**
**Səfərov Zülfüqar Heydər oğlu......35**
**Fərziyev Cəlal İbrahim oğlu......36**
**Nəciyev Habil Xanqulu oğlu......37**
**Kərimov Əbülfət Ağadədə oğlu......38**
**Kərimov Kənan Əsgər oğlu......39**
**Ramazanov Qədir İslam oğlu......40**
**Həmidov Həmid İsaq oğlu......41**
**Məmmədov Bakir İxtiyar oğlu......42**
**Cəfərov Təhsin Almas oğlu......43**
**Babayev Rakif Cəlal oğlu......44**
**Rzayev Əhəd Əsgər oğlu......45**
**Ruhullayev Elmas İbrahim oğlu......46**
**Nəzərov Qədir Xudabağış oğlu......47**
**Cahangirov Kamal Şahverən oğlu......48**
**Şaliyev Eldar Ağabala oğlu......49**
**Sadıxov Talışxan Xudakərim oğlu......50**
**Rəhimov Valeh Yaqub oğlu......51**
**Məmmədov Balamir Şirməmməd oğlu......52**
**Əliyev Əhliman Ağaxan oğlu......53**
**Səfərov Zəfər Ağayar oğlu......54**
**Babayev Saleh Azadxan oğlu......55**
**İbrahimov Valeh Allahyar oğlu......56**
**Əliyev Namiq Rəcəbəli oğlu......57**
**Bağışov Malik Sədaqət oğlu......58**
**Həmidov Katibəli Tərlan oğlu......59**
**İsmayılov Telman Bayraməli oğlu......60**
**Əkbərov Ramiz Əzizxan oğlu......61**
**Məmmədov Əbülfəz Sərdar oğlu......62**

**Ağayev Mehman Nəriman oğlu** ........................................63
**Şahpələngov Elşən Mirzəhüseyn oğlu**..................................64
**Qəribov Şəmsi Alixan oğlu**.....................................................65
**Sadıxov Şahin Xanhüseyn oğlu** .............................................66
**Rüstəmov Xaqani Xanıbəy oğlu** ........................................67
**Əhədov Qiyas İsaxan oğlu**......................................................68
**Əsədov Vahab Ayaz oğlu**........................................................69
**Cabbarov Səlim Qəyyum oğlu** ...............................................70
**Bəşirov Sarxan Balabəy oğlu**..................................................71
**Mərdiyev Sarvan Güloğlan oğlu**...............................................72
**Maşiyev Nemət Mütəllim oğlu** ..............................................73
**Bəbirov Zahir Bayraməli oğlu** ...............................................74
**Cəfərov Müşfiq İlyas oğlu**.......................................................75
**Fərzullayev Vaqif Ulduz oğlu**...................................................76
**Fərzullayev Zakir Ulduz oğlu** ..................................................77
**İbadov Sarvan Bayram oğlu**....................................................78
**Həsənov Zahid Şahverdi oğlu**...................................................79
**Fərəcov Elxan Həsənağa oğlu**...................................................80
**Musayev Zəfər Muxtar oğlu**.....................................................81
**Feyziyev Rauf Bilal oğlu**..........................................................82
**Təhməzov Azər Şahrza oğlu**.....................................................83
**Yaqubov İsmayıl Ağamoğlan oğlu** ..........................................84
**Zahirəliyev Sulduz Əliş oğlu** ..................................................85
**Nuriyev Arif Ələsgər oğlu**........................................................86
**Əliyev Nadir Möhkəm oğlu**.......................................................87
**Qəmbərov Xaliq Şəxsin oğlu** ...................................................88
**Rəhimov Qorxmaz Gülhəsən oğlu**.............................................89
**Nəciyev Ənvər Xosaxan oğlu**....................................................90
**Həsənov Mübariz Ağakişi oğlu** ...............................................91
**Talıbov Əfsər Mədi oğlu**...........................................................92
**Alxasov Yaşar Abutalıb oğlu** ....................................................93
**Hüseynov Əziz Ənsar oğlu** ......................................................94
**Dövlətov Balaş Atakişi oğlu**.....................................................95

Bayramov Bəxtiyar Əlifağa oğlu....................96
Hüseynov Ələkbər Orucəli oğlu....................97
Rəhimov Valeh Həsrət oğlu....................98
Məmmədov Faiq Bahaddin oğlu....................99
Ələkbərov İlkin Tarqulu oğlu....................100
Fətullayev Fədail Əzizağa oğlu....................101
AğayevŞaiq Sərhad oğlu....................102
Məmmədov Əbülfəz Ağaxan oğlu....................103
Rüstəmov Şahlar Xanoğlan oğlu....................104
Kişiyev Namiq Qənbər oğlu....................105
Əzizov Cavid Təslim oğlu....................106
Şahiyev Camal Xanış oğlu....................107
Məhərrəmov Teymur Xanmirzə oğlu....................108
Mirzəyev Azər Həsən oğlu....................109
Qasımov Mikayil Dadi oğlu....................110
Hacıyev Namiq Talıb oğlu....................111
Nuriyev İldırım Xanəli oğlu....................112
Bəşirov Etibar Qubad oğlu....................113
Qasımov Elşən Natiq oğlu....................114
Novruzov Əflatun Ulduzxan oğlu....................115
Mirişov Elçin Vaqif oğlu....................116
Quliyev Mustafa Mirtəği oğlu....................117
Rəhimov Gəray Şahverdi oğlu....................118
Quliyev Rüfət Ağaqulu oğlu....................119
Kərimov Rauf Əlizadə oğlu....................120
Abdullayev Gülməmməd Şıxməmməd oğlu....................121
Həsənov Elşən Əlihüseyn oğlu....................122
Rzayev Şəmsi Aslan oğlu....................123
Əliyev Amil Novruz oğlu....................124
Şahbazov Cavid Tarverdi oğlu....................125
Həsənov Zamin Gülağa oğlu....................126
QurbanovRamin Rukəxanoğlu....................127
Ağayev Ruslan Qalib oğlu....................128

Şahmuradov Güloğlan Şıxməmməd oğlu ........ 129
Muradov Namaz Fərman oğlu ........ 130
Tahirli Natiq Namiq oğlu ........ 131
Əliyev Vüsal Əmir oğlu ........ 132

## HƏLƏ YOL GÖZLƏYƏN VAR...

Kazımov Telman Mirzəxan oğlu ........ 133
Abbasov Zahid Ziyad oğlu ........ 134
Məhərrəmov Məhəbbət Həsən oğlu ........ 135
Veysəlov Sərdar Extiyar oğlu ........ 136
Dövlətov Aqşin Tarverdi oğlu ........ 137
Nodiyev Alxas Cavad oğlu ........ 138
Bayramov Azad Muxtar oğlu ........ 139
Rüstəmov Tərlan Kamal oğlu ........ 140
Əliyev Namiq Gülbaba oğlu ........ 141
Məmmədov Əmrah Salman oğlu ........ 142
Dənziyev Nail Fail oğlu ........ 143
Feyziyev Tofiq İzzət oğlu ........ 144
Kazımov Əhliman Panəli oğlu ........ 145
Həsənov Nadir Sərməst oğlu ........ 146
Vahabov Ziyad Bahəddin oğlu ........ 147
Səfərov Arzuman Canəli oğlu ........ 148
Məmmədov Əfqan Ağasən oğlu ........ 149
Şərifov İlham Sahib oğlu ........ 150

**Xalid Mahmud**
(Ağayev Xalid Qədiməli oğlu)
"**Əbədiyyət yolçuları**"

Azərbaycan dilində
**Bakı "Nəşriyyat"-2016, 160 səh.**

Texniki redaktor: **Anar ƏSƏDOV**
Коmp.tərtibatçısı: **Səriyyə MƏMMƏDOVA**
Mətni yığdı: **Reyhan HEYDƏRLİ**
Коrrektor**:** **Fariz QULİYEV**

Yığılmağa verilmişdir: 20.04.2016
Çapa imzalanmışdır:20.07.2016
Kağız formatı: 84x108 1/32
Fiziki çap vərəqi:16
Mətbəə kağızı:№ 1 Sifarişli.
***Ofset üsulu ilə çap olunmuşdur***
**Nəşriyyat - 2016**